www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 18-20 avqust 2018-ci il Şənbə № 176 (7065) Qiyməti 60 qəpik

**Xəbər**

## Əsgər ölümünə görə üç nəfər qandallandı - cinayətin xronikası

yazısı səh.7-də

**Gündəm**

### Merkelin səfəri öncəsi xaricdəki anti-Azərbaycan qüvvələr hərəkətə keçdi



Bu səfərin son bir ildə Almaniyada formalaşan "söyüş müxalifəti"nin sonunu gətirə biləcəyi barədə iddialar var

yazısı səh.6-da

### AXC iqtidarının baş prokuroru yenə Surət Hüseynov qiyamından danışdı

yazısı səh.9-da

### 500 min mənimsəyən MMC sədri ev dustağı edildi

yazısı səh.4-də

*Sülhəddin Əkbər:*

### "Rusiya ABŞ dərin dövlətinin Qorbaçovu ələ keçirməsinin intiqamını alır"

yazısı səh.5-də

### Ermənilər Azərbaycan puluna görə bir-birini qırır

yazısı səh.9-da

### "Azərbaycan təcili Xəzər donanmasını gücləndirməlidir" - ekspertlər

yazısı səh.12-də

### Xaçmazda qadın özünü maşından atıb öldürdü

yazısı səh.3-də

### İş elanlarındakı tələlərə necə düşməməli - xanımlar üçün 6 qızıl qayda

yazısı səh.13-də

### ABŞ-ın dünya ilə savaşının məqsədi - "tək güc" olmaq hikkəsi

yazısı səh.12-də

### Naxçıvandan gələn qadağa xəbəri Bakıda "toyla" qarşılandı

yazısı səh.14-də

### "Qarabağ"ın pley-offda rəqibi "eşşək arıları" oldu: "Şerif" haqda nə bilirik?

yazısı səh.15-də

# "ERMƏNİSTAN AZƏRBAYCAN VƏ TÜRKİYƏ İLƏ TƏKBƏTƏK QALA BİLƏR" - ŞİMALDAN HƏDƏ

Rusiyadan yeni erməni hökumətinə qarşı təhdidlər artır; ABŞ-ın ardınca İrana səfərə gedəcək Nikol Paşinyanın "iki stul"da oturmaq siyasəti iflasa doğru gedir...



yazısı səh.8-də

## Elmar Vəliyevə sui-qəsd - yeni həbslər və təfərrüat

Baş Prokurorluq, DİN və DTX birgə məlumat yaydı

yazısı səh.4-də



Aydın Mirzəzadə

### YAP funksioneri İlqar Məmmədovu müxalifətdən müdafiə etdi

yazısı səh.4-də



### "Hadı Rəcəblinin mandatını alırlar" xəbəri deputatı qəzəbləndirdi

yazısı səh.7-də



### Hacı Şahin Həsənlinin xütbədə söylədiyi müzakirə doğurdu

yazısı səh.3-də

YENİ MÜSAVAT
N 176 (7065) 18 avqust 2018

## Məktəblərdə dərslər sentyabrın 17-də başlayacaq



**Bu il Azərbaycanın ümumtəhsil məktəblərində dərslər sentyabr ayının 15-də başlamayacaq. "Report" xəbər verir ki, buna səbəb sentyabrın 15-nin şənbə gününə təsadüf etməsidir.**

Şənbə istirahət günü olduğuna görə, 2018-2019-cu dərs ili sentyabrın 17-də başlayacaq.

Qeyd edək ki, Nazirlər Kabinetinin 2014-cü il 30 oktyabr tarixli 362 nömrəli qərarı ilə "Ümumtəhsil məktəbinin Nümunəvi Nizamnaməsi"ndə edilən dəyişikliyə əsasən, 2015/2016-cı dərs ilindən ümumtəhsil məktəblərində dərslər sentyabrın 15-də başlayıb iyunun 14-də başa çatır.

## Rusiya və Tükiyə müdafiə nazirləri Suriyanı müzakirə etdilər

**Rusiyanın müdafiə naziri Sergey Şoyqu türkiyəli həmkarı Hulusi Akarla görüşüb. Virtualaz.org yerli KİV-ə istinadən bildirir ki, Moskvada keçirilmiş görüş zamanı regional təhlükəsizlik, Suriyadakı vəziyyət və ikitərəfli əməkdaşlıq məsələləri müzakirə olunub.**

Qeyd olunur ki, danışıqlar əsasən Suriyada humanitar vəziyyətin nizamlanması, o cümlədən qaçqınların qayıtması ilə bağlı məsələlərə həsr olunub.

Bundan başqa, Rusiya və Türkiyə müdafiə qurumlarının qarşılıqlı fəaliyyəti də müzakirə mövzusu olub.

Xatırladaq ki, Hulusi Akarla birlikdə Milli Kəşfiyyat Təşkilatının (MİT) rəhbəri Hakan Fidan da Moskvadadır.

## Rusiya 10 ildən sonra Tiflisdə viza mərkəzi açdı

**Tiflisdə Rusiya viza mərkəzi fəaliyyətə başlayıb. Mərkəz Gürcüstan və digər ölkələrin vətəndaşlarından, həmçinin vətəndaşlığı olmayan şəxslərdən Rusiyaya giriş vizaları almaları üçün müraciətləri qəbul edəcək. Bu barədə İsveçrənin Tiflisdəki səfirliyində fəaliyyət göstərən Rusiyanın Gürcüstandakı maraqları bölməsindən məlumat veriblər. (azvision.az)**

Qeyd ediblər ki, Tiflisdə açılan Rusiya viza mərkəzinin əməkdaşlarına viza sənədlərilə bağlı bütün əməliyyatların yerinə yetirilməsi üçün rəsmi səlahiyyətlər verilib. Viza müraciətləri ilə bağlı məlumatlar işlənib hazırlandıqdan sonra Rusiya viza mərkəzi sənədləri Rusiyanın Gürcüstandakı maraqları bölməsinə ötürəcək. Bölmədən bildiriblər ki, viza mərkəzi yalnız xidməti funksiyaya malikdir, vizaların verilməsi və sənədlərin yoxlanılması diplomatların və müvafiq qurumların səlahiyyətinə aiddir.

Xatırladaq ki, 2008-ci ilin avqust müharibəsindən sonra Tiflisi Moskva ilə diplomatik münasibətlərini rəsmən kəsərək, yalnız konsulluq əlaqələrini saxlayıb. 2009-cu ildən isə İsveçrənin Tiflisdəki səfirliyində Rusiyanın Gürcüstandakı maraqları bölməsi, müvafiq olaraq İsveçrənin Moskvadakı səfirliyində isə Gürcüstanın Rusiyadakı maraqları bölməsi fəaliyyət göstərir.

## "Nar" bölgələrdəki LTE şəbəkəsini genişləndirir

**Abunəçilərin rahat, kəsintisiz rabitə və internet xidmətlərindən yararlanması məqsədilə "Nar" yeni baza stansiyalarının ölkə ərazisində quraşdırılması prosesini davam etdirir. Aparılmış genişmiqyaslı təkmilləşdirmə işləri nəticəsində mobil operator Bakı və Abşeron yarımadası, eləcə də Gəncə şəhəri ilə yanaşı, respublikanın digər bölgələrində də 4G (LTE) xidmətini abunəçilərin istifadəsinə təqdim edib. Belə ki, 2018-ci ilin ilk yeddi ayı ərzində respublikanın 35 bölgə mərkəzində yaşayan abunəçilər mobil internet sürətinin əhəmiyyətli dərəcədə artmasını təmin edən LTE xidmətindən yararlanmaq fürsəti əldə ediblər.**

**Mobil operator Bakı, Abşeron və Gəncə istisna olmaqla, bölgə mərkəzlərindəki LTE baza stansiyalarının sayını əhəmiyyətli dərəcədə artırmaqla regionlarda LTE texnologiyasının tətbiqinin genişlənməsini davam etdirir. Yeni baza stansiyalarının istifadəyə verilməsi prosesi Xaçmaz, Quba, Qusar, Lənkəran, Qəbələ, Şəki, Şabran, Salyan, Şirvan, Şəmkir, Mingəçevir və digər bölgə mərkəzlərində daha intensiv surətdə həyata keçirilmişdir. Artıq ölkə ərazisindəki "Nar" abunəçilərinin böyük əksəriyyəti mobil operatorun LTE şəbəkəsinin üstünlüklərindən faydalana bilirlər. Bölgələrdəki "Nar" abunəçiləri mobil operatorun LTE texnologiyası ilə təmin etdiyi 225 Mbit/s çatan sürət sayəsində internet resurslarından daha səmərəli şəkildə istifadə edirlər.**

**"Nar" bölgələrdəki şəbəkəsinin genişləndirilməsi istiqamətindəki işləri davam etdirir. Hazırda genişləndirilmiş "Nar" şəbəkəsi ölkə ərazisinin 93%-ni əhatə edir və 7000-dən artıq baza stansiyası ilə 2 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.**

**Mobil operatorun şəbəkəsi və baza stansiyaları haqqında daha ətraflı məlumatı nar.az internet səhifəsindən öyrənmək olar.**

# Sürüşmə zonaları aktivləşir

**Son günlər müşahidə olunan qeyri-sabit və yağmurlu hava şəraitindən sonra Azərbaycanın bəzi ərazilərində yeni sürüşmə zonaları yaranıb, köhnə sürüşmələrdə aktivlik qeydə alınıb.**



Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Geoloji Kəşfiyyat Xidmətinin Geoloji planlama ekspedisiyasının rəisi Əziz Qaralov "Report"a açıqlamasında deyib ki, Abşeron yarımadasında ən təhlükəli ərazi Zığ sürüşmə sahəsidir, hazırda həmin ərazidə aktivlik müşahidə olunur: "Zığdakı sürüşmə zonasında yerləşən beşmərtəbəli binada çatlar əmələ gəlib".

Onun sözlərinə görə, Abşeron rayonunun Nübar qəsəbəsində, Masazır qəsəbəsindəki Zəli gölü adlanan ərazidə aktivlik qeydə alınıb.

Mütəxəssis xatırladıb ki, Şamaxı şəhər, məhəllə 48 A ünvanında avqustun 15-də torpaq sürüşməsi baş verib: "Bir ildən çoxdur həmin ərazini müşahidə edirik və mütəmadi məlumat veririk. Hər ay bülletenlərdə orada aktivliyin olmasını qeyd edilir. Son günlərdə atmosfer çöküntülərinin həddən artıq olması bu prosesi bir az da aktivləşdirib. Həmin məhəllə yeni salınmış məhəllədir, hava şəraiti ilə əlaqədar orda sürüşmə prosesi aktiv fazaya keçib. Son günlər orada müəyyən uçqunlar olub, bəzi evlərə ziyan dəyib. Şamaxı rayonu tektonik cəhətdən olduqca mürəkkəbdir, yeni sürüşməyə meylli ərazidir".

Ə.Qaralov Ağsu aşırımının 156-cı km-də də çökmə və uçqunun baş verdiyini bildirib. Onun sözlərinə görə, Bakı-Şamaxı yolunun 106-111-cu kilometrliyində (Acıdərə adlı ərazi) də aktivlik qeydə alınıb: "Şamaxının Çaylı və Qaleybuğurd kəndlərində aktivləşmə olması ilə bağlı Ekologiya və Təbii Sərvətlər Nazirliyinin 24 saat fəaliyyət göstərən 168 nömrəli "Qaynar xətt"inə müraciət edilib. Bundan əlavə, Muğanlı-İsmayıllı magistral avtomobil yolunun 2-11-ci kilometrliklərində ayrı-ayrı hissələrində aktivlik qalmaqdadır".

**Digər bölgələrə gəlincə ekspedisiya rəisi bildirib ki, Lənkəran-Lerik yolunun 37-40-cı kilometrliyində uçqun və çökmə prosesləri baş verib.**



## Trampın İranla dialoq şərtləri açıqlandı

**Əgər İran öz davranışını dəyişərsə, ABŞ prezidenti Donald Tramp Tehranla dialoqa hazırdır.**

Virtualaz.org yerli KİV-ə istinadən bildirir ki, bunu ABŞ-ın İran üzrə yeni təyin olunan xüsusi nümayəndəsi Brayan Huk deyib.

Onun sözlərinə görə, İran İslam Respublikası öz mövqeyini fundamental şəkildə dəyişəcəyinə dair öhdəlik nümayiş etdirməlidir. Yalnız bu halda İrana qarşı sanksiyaların azaldılması, ikitərəfli diplomatik və iqtisadi münasibətlərin bərpası mümkündür.

Qeyd edək ki, ABŞ Dövlət Departamentində Amerikanın İrana münasibətdə siyasətinin uzlaşdırılması məqsədilə xüsusi qrup yaradılıb. Qrupa ABŞ-ın İran üzrə xüsusi nümayəndəsi Brayan Huk rəhbərlik edir. Bundan əvvəl o, siyasi planlaşdırma üzrə departament direktoru vəzifəsində çalışıb.



## Bakıda 6 marşrut xətti müsabiqəyə çıxarıldı

**49, 50, 64, 136, 160 və 171 nömrəli müntəzəm marşrut xətləri müsabiqəyə çıxarılıb. Bakı Nəqliyyat Agentliyindən verilən məlumata görə, daxil olan vətəndaş müraciətləri əsasında 49, 50, 64, 136, 160 və 171 nömrəli müntəzəm marşrut xətləri üzrə təhlillər aparılıb və bir sıra çatışmazlıqların olduğu müəyyən edilib.**

Bunu nəzərə alaraq qeyd edilən xətlərin müsabiqəyə çıxarılması qərara alınıb.

Məqsəd bu xətləri üzrə sərnişindaşıma xidmətlərinin keyfiyyətinin artırılmasıdır.

Müsabiqədə iştirak etmək istəyənlər Bakı Nəqliyyat Agentliyinə müraciət etməlidir.

## Rusiya XİN Naxçıvan istiqamətində monitorinqi təkzib etdi

**Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Ermənistan arasındakı sərhəddə monitorinqin keçirilməsi məsələsi ATƏT-də müzakirə olunmayıb. Bu barədə "Trend"ə münaqişə zonasına daxil olmayan ərazilərdə monitorinqin keçirilməsinin mümkünlüyü ilə bağlı ATƏT Minsk qrupunun həmsədri qismində rəsmi Moskvanın mövqeyi barədə suala cavab olaraq Rusiya Xarici İşlər Nazirliyindən bildiriblər.**

Məlumatda qeyd olunub ki, bu anadək həmin məsələ ATƏT çərçivəsində müzakirə olunmayıb.

Xatırladaq ki, bir müddət əvvəl Ermənistan Xarici İşlər Nazirliyinin mətbuat katibi Tiqran Balayan bildirmişdi ki, rəsmi İrəvan Ermənistanın Naxçıvanla sərhəd bölgələrində monitorinqin keçirilməsi ilə bağlı dəfələrlə ATƏT-in hazırkı sədrinin şəxsi nümayəndəsi Ancey Kaspşikin ofisinə müraciət edib.

## Tikinti materiallarının qiyməti bahalaşıb

**"Son bir ayın monitorinqlərinin nəticəsinə görə, tikinti materialları bazarında 0,43% ucuzlaşma olub".**

Bu barədə modern.az-a açıqlamasında Azərbaycan Qiymətləndiricilər Cəmiyyətinin sədri, "MBA Group" konsaltinq şirkətinin baş direktoru Nüsrət İbrahimov deyib.

"Bu qiymət dəyişiminİ materiallar üzrə desək qaynaq elektrodlarında 7,4%,dikdə 3,5% və taxtanın qiymətində 2,9%(taxtanın bir kubunun qiyməti 340 manatdan 330 manata düşüb) azalma olub.

N.İbrahimov bildirib ki, il ərzində inşaat materiallarının qiymətlərində 14 faiz artım olub.

"Tikinti sahəsində canlanma yaz aylarında daha çox olur, nəinki yayda. Hazırda tikintilər getsə də bu, yaz ayları ilə müqayisədə azdır".

## Leysan yağacaq

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən verilən məlumata görə, avqustun 18-də Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Şimal-qərb küləyi arabir güclənəcək.**

Havanın temperaturunun Abşeron yarımadasında gecə 21-24, gündüz 27-32, Bakıda gecə 22-24, gündüz 29-31 dərəcə isti olacağı gözlənilir.

Azərbaycanın rayonlarında avqustun 18-də gecə və səhər bəzi şimal rayonlarında, gündüz isə əksər rayonlarda şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə yağışın leysan xarakterli intensiv olacağı ehtimalı var. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 20-25, gündüz 30-35, dağlarda gecə 12-17, gündüz 18-23 dərəcə isti təşkil edəcək.

Tibbi-meteoroloji proqnoza görə, avqustun 18-19-da Abşeron yarımadasında arabir güclənən xəzri küləyi fonunda temperaturun iqlim norması daxilində olacağı gözlənilir ki, bu da meteohəssas insanlar üçün əsasən əlverişlidir.

## 7 ayda Azərbaycan əhalisinin gəlirləri 30 milyard manatdan çox olub

**2018-ci ilin yanvar-iyul aylarında Azərbaycan əhalisinin nominal gəlirləri əvvəlki ilin müvafiq dövrünə nisbətən 9,4 faiz artaraq 30 milyard 331,0 milyon manat olub.**

Trend-in məlumatına görə, nominal gəlir əhalinin hər nəfərinə orta hesabla 3 min 094,8 manat təşkil edib.

Bütün icbari və könüllü ödənişlər edildikdən sonra əhalinin sərəncamında 27905,4 milyon manatlıq və ya əvvəlki ildəkindən 9,9 faiz çox vəsait qalıb.

YENİ MÜSAVAT
N 176 (7065) 18 avqust 2018

# Hacı Şahin Həsənlinin xütbədə söylədiyi müzakirə doğurdu

## İlahiyyatçı: “Namaz qılıb özündən razı olmaq və araq içib özündən narazı olmağın hər ikisi mənfi xüsusiyyətdir...”

**Bakıdakı “Məşədi Dadaş” məscidinin imam-camaatı Hacı Şahin Həsənlinin xütbələri vaxtaşırı sosial mediada müzakirə mövzusuna çevrilir. Bu dəfə ilahiyyatçının ötən həftə etdiyi cümə xütbəsində yalançı dindarlardan söz açması qalmaqala səbəb olub. Hacı Şahin çıxışında spirtli içki qəbulunun günah iş olduğunu xatırlatsa da, hər içki içənin pis adam olmadığını da deyib.**

**Sitat:** “İnsanlara tez qiymət verməyin. Zahirində pisliklər gördüyünüz adamların batili təmiz ola bilər. Adam var ki, zahiri gözəldir, dindardır, dilindən zikr düşmür, amma xəbis adamdır. Adam var, bir dəryadır. Şəffaf deyil ki, rahat tanıyasan. Namaz qılanların hamısı yaxşıdır, içki içənlərin hamısı pis olsaydı, nə vardı? İmam başı kəsənlərin çoxu namaz qılanlardan çıxıb. Mən sizə tarixi deyirəm. Özüm namaz qılanam, dindaram, din xadimi olduğum üçün bunu rahat deyirəm. Bundan əvvəl demişdim ki, namaz qılıb özündən razı olmaqdansa, araq içib özündən narazı olsan yaxşıdır. Araq içmək günahdır, şeytan əməlidir. Bir əmması var ki, hər namaz qılan hər araq içəndən üstün deyil”.

Hacı Şahin Həsənlinin qalmaqal yaradan bu xütbəsi ilə əlaqədar ilahiyyatçı Fərid Abdulla “Yeni Müsavat”a bildirdi ki, din insana xidmət edən, onu kamilləşdirən bir proqramdır: “Yəni insana özünü düzgün idarə etmə bələdçiliyini üzərinə götürür. Adətən insanın münasibəti üç hissəyə ayrılır: onun Allahla münasibəti, özünə münasibəti və cəmiyyətə münasibəti. Bəzən belə təsəvvür yarana bilər ki, Allah bir hökmdardır və insan onun istək və tələblərini yerinə yetirməlidir. Bəzi yanlış təsəvvürlər belə bir despotizm ortaya çıxarır. Halbuki Allahın bunlardan heç bir mənfəəti yoxdur. Onun istək və iradəsi yalnız insanın xoşbəxtliyi və azadlığıdır. Namaz qılıb-qılmamağın Allaha nə faydası var? Yaxud keyfiyyətsiz və ya keyfiyyətli namaz qılmaq məgər insana aid deyil? Quranda Allah bir neçə yerdə bildirib ki, sizin aranızda olan bir çox ixtilaflı məsələləri mən özüm həll edəcəyəm. İnsanlara isə yalnız islahat işləri - məsələn, pozulmuş və dağılmış əlaqələrin bərpası tapşırılıb. Bəzən insanlar elə bilir, Allah öz dinini müdafiə etmək öhdəçiliyini onların üzərinə qoyub. Odur ki, hər yerdə Allahın vəkili rolunu oynayırlar. Halbuki kimisə mühakimə etmək, kimisə seçmək yalnız Allahın öhdəsindədir. İnsan isə yalnız öz öhdəsinə düşənləri etməlidir”.

İlahiyyatçı Quran məntiqinə əsasən deyir ki, bizim insanların imanını sorğulamaq haqqımız yoxdur: “Alimlərdən biri deyirdi ki, ayın nə qədər işıqlı tərəfini görürsənsə, onun bir o qədər qaranlıq tərəfi var. İnanc hər kəsin öz hüququdur. Biz yalnız məsələnin zahiri tərəflərinə baxa bilərik. Deyirlər, namaz qılan oğurluq etdi, deməyin, oğru namaz qılır, deyin. Cəmiyyətdə bu iki ifadə bir-birinə qarışıb. Diqqət etsək, görərik ki, hələ də dindarla dinin arasında fərq qoyulmayıb. İnsanlar dindara baxıb, nəticə çıxarırlar. Quran məntiqi deyir ki, bir sıra adamlar peyğəmbərin yanına gəlib iman gətirdiklərini minnət qoyurdular. Allah isə bu ifadəni rədd edərək deyirdi ki, ”onlara de, siz sadəcə təslim olmuşunuz. İman hələ sizlərin qəlbinə daxil olmayıb". İman car çəkiləsi şey deyil, iddia vasitəsi deyil. İman bir məsuliyyətdir. Əslində bir çox insanlar dindarları ona görə tənqid edir ki, onlardan daha çox şey gözləyirlər. Əslində Allahın hökmü xüsusi bir dəstəyə aid deyil, hər kəsə aiddir. Bunu bilərək inkar edənlər Allah qarşısında məsuliyyət daşıyır. Bilməyərək və ya hansısa bir bəhanə ilə boyun qaçıranlar da o cür. Bu şəxslər cəmiyyət arasında fəsad və pozğunluq yaymadıqları təqdirdə, özgürdülər. İnancı olan da bu cürdür. İnanc adama yalnız Allah yanında xüsusi imtiyaz verə bilər. O da bunun dəlil əsasında olması və söylənilənlərə əməl olunmasındadır. Hüquqi baxımdan isə hamı eynidir".



**“İmamı kimlər qətlə yetirib” sualına gəlincə, ilahiyyatçı izah edir ki, ənənəvi şəkildə, heç bir dəlilə əsaslanmayan və qaraguruhçuluq insanı cəhalətə aparır:** “Yəni sən inanclısan, artıq qurtulmusan deyə, bir şey yoxdur. Kor-koranəlilik insanı fəlakətə də apara bilər. Məsələn, İmam Həsənin qoşununda olan, sadəcə dinin zahiri praktiki göstəricilərini yerinə yetirənlər, lakin qəlblərinə iman oturmayan və əslində İmam Həsənin kim olduğunu qanmayan şəxslər ona xəyanət etdilər. Biz bunu qəbul etməliyik. Hər namaz qılan düz adamdır demək düz sayılmır. Din deyir ki, düz adam namaz qılmağın nə olduğunu başa düşən, anlayan adamdır. Quran deyir ki, namaz insanı pis və çirkin əməldən çəkindirir. Əgər namaz qılanda mənəvi dəyişiklik yoxdursa, bu namazın yox, onun qüsurudur və biz bunu ayırd edə bilməliyik. Namaz qılırsa, pislikdən çəkinir anlamında deyil. Namaz qılıb özündən razı olmaq və araq içib özündən narazı olmağın hər ikisi mənfi xüsusiyyətdir. Bəzən insanlar cəsarət taparaq deyirlər ki, mən filan pis əməli etsəm də, min dindardan üstünəm. Yaxud kimsə deyə bilər ki, mən dindaramsa, min filan əməli edən kəsdən üstünəm. Əslində Quran təqvaya əməl edən kəsin ən üstün olduğunu deyir. Yəni Allah yanında özünü fəlakətdən, yəni insanı rəzilliyə sürükləyən şeylərdən qoruyan kəs daha hörmətlidir. Maraqlıdır ki, Allah üstün ifadəsini işlətməyib”.

“İnsanın özünü müqayisə etməsi hərtərəfli mənfi haldır. Bu gün psixologiyada bu hallar mənfi qarşılanır. Əslində Quran özünü digəri ilə müqayisə etməyi məzəmmət edir. İlk müqayisə edən elə İblis olub. ”Mən oddan, o isə palçıqdan yaranıb. Od isə palçıqdan üstündür" deyərək, özünü kənara çəkdi. Biz yalnız örnək götürə bilərik, müqayisə aparmaq bizi bir yerə çatdırmaz. Əlbəttə, müqayisənin nə olması ayrı müzakirədir. İmam Əli Malik Əştəri Misirə icra başçısı göndərəndə ona dedi ki, bəzi insanlar səninlə dində, bəzilərisə yaradılışda qardaşdır. Yəni çalış müştərək cəhətləri tap. Fərqli cəhətlər təfriqə yaradır. Fərq yalnız həqiqətin ortaya çıxması üçün vasitədir. Ayrımçılıq üçün yox. İnsanlar vahid mərkəzli dəyərlərə sarılsalar, bu qədər problem ortaya çıxmaz" - deyə ilahiyyatçı sonda əlavə edir.

**❑ Ləman MUSTAFAQIZI, “Yeni Müsavat”**

# Mehman Hüseynovun məhkəməsinin vaxtı bilindi

**Blogger Mehman Hüseynovun vaxtından əvvəl şərti azadlığa buraxılması ilə bağlı müraciət üzrə məhkəmənin vaxtı açıqlanıb.**



Musavat.com-un məlumatına görə, Qaradağ Rayon Məhkəməsində keçiriləcək iclas avqustun 24-nə təyin edilib.

Məhkəmə hakim Rəşad Məmmədovun icraatına verilib.

Qeyd edək ki, M.Hüseynovun anası Firəngiz Hüseynova avqustun 6-da vəfat edib. Ona anasının yas mərasimində iştirak etmək üçün icazə verilmişdi və müvəqqəti azadlığa buraxılmışdı.

Xatırladaq ki, M.Hüseynov 2017-ci il martın 3-dən həbsdədir. O, Suraxanı Rayon Məhkəməsinin qərarı ilə 2 il müddətinə azadlıqdan məhrum edilib. Qərar Nəsimi rayon Polis idarəsinin rəisi Musa Musayevin xüsusi ittiham qaydasında etdiyi şikayət əsasında çıxarılıb.

Bloqqer Cinayət Məcəlləsinin 147.2-ci (böhtan, ağır və ya xüsusilə ağır cinayətdə ittiham etməklə böhtan atma) maddəsi ilə ittiham olunub.

# Bir gündə borclu olan 11 nəfər tutuldu



**Avqustun 16-dan 17-dək daxili işlər orqanlarında qeydə alınmış cinayət və hadisələr haqqında statistik məlumat açıqlanıb.**

Daxili İşlər Nazirliyindən verilən məlumata görə, respublikanın daxili işlər orqanları tərəfindən gün ərzində 126 cinayət faktı qeydə alınıb, onların da 31-i “isti izlər”lə açılıb. Əvvəlki dövrlərdən bağlı qalmış 16 cinayətin açılması təmin olunub.

Axtarışda olduğuna görə ümumilikdə 30 nəfər, o cümlədən borclu şəxs qismində axtarışda olan 11 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib.

Respublikanın avtomobil yollarında 5 yol-nəqliyyat hadisəsi baş verib, nəticədə 4 nəfər ölüb, 4 nəfər xəsarət alıb.

Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 17, qanunsuz saxlanılan silah-sursatla bağlı 2 fakt müəyyən edilib.

Cinayət törətməkdə şübhəli bilinən 45 nəfər saxlanılıb.

# Xaçmazda qadın özünü maşından atıb öldürdü

**Xaçmaz rayonunda 42 yaşlı qadın özünü hərəkətdə olan avtomobildən ataraq intihar edib.**

“Report” xəbər verir ki, hadisə rayonun Vələmir kəndinin ərazisində baş verib.

Xaçmaz şəhər sakini, 1976-cı il təvəllüdlü Səmalə Qasımova özünü Cavanşir Səfərovun idarə etdiyi “VAZ 21015" markalı avtomobildən atıb. Qadın hadisə yerində ölüb.

Faktla bağlı Cinayət Məcəlləsinin 125-ci (Özünü ölüm həddinə çatdırma) maddəsi ilə cinayət işi başlanıb, araşdırma aparılır.

# Polis 2 gün gücləndirilmiş rejimdə işləyəcək

**Respublikanın daxili işlər orqanları Qurban bayramı günlərində gücləndirilmiş iş rejimində işləyəcək.**

Daxili İşlər Nazirliyindən məlumata görə, daxili işlər naziri, general-polkovnik Ramil Usubov Qurban bayramı günlərində ictimai asayişin, qanunçuluğun və hüquq qaydasının daha etibarlı qorunması məqsədilə əmr imzalayıb.

Əmrə əsasən, avqustun 22-dən 24-dək ictimai yerlərdə və küçələrdə post-patrul naryadlarının sıxlığı artırılacaq, həyat təminatlı, mühüm əhəmiyyətli obyektlərdə mühafizə-rejim tədbirləri, habelə xarici ölkələrin diplomatik nümayəndəliklərinin mühafizəsi gücləndiriləcək.

Yeni MÜSAVAT
N 176 (7065) 18 avqust 2018

# Elmar Vəliyevə sui-qəsd-yeni həbslər və təfərrüatlar

**Baş Prokurorluq, DİN və DTX Gəncə İcra başçısı Elmar Vəliyevin güllələnməsi ilə bağlı növbəti məlumat yayıb.**

Musavat.com-a daxil olan məlumatda qeyd edilir ki, 2018-ci il iyul ayının 3-də Gəncə şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyevə və polis əməkdaşı Qasım Aşbazova qarşı məqsədyönlü şəkildə əvvəlcədən planlaşdırılmış terror aktı, iyulun 10-da isə Gəncə şəhərində kütləvi iğtişaş törətməklə həmin terror aktını dəstəkləyən radikal dini yönümlü bir qrup şəxsin xidməti vəzifələrini yerinə yetirən iki polis əməkdaşına zor tətbiq etməklə qətlə yetirməsi və sair faktlar üzrə cinayət işi başlanılaraq istintaq aparılır.

Davam etdirilən prosessual araşdırmalar və əməliyyat-axtarış tədbirləri ilə müəyyən edilib ki, iyul ayının 3-də törədilmiş cinayətin icraçısı, hazırda həbsdə olan Yunis Səfərov yaxın münasibətdə olduğu Eldar Orucov, Azər Əliyev, Mahir Əzizov ilə birlikdə Azərbaycanda şəriət qaydaları ilə idarə edilən dövlət qurmaq niyyəti ilə hökumət orqanlarına qarşı partizan müharibəsi aparmaq qərarına gəliblər. Bu məqsədlə onlar 2012-ci ildə xarici ölkələrdən birində döyüş təlimi keçmiş və həmin ilin yaz aylarında Gəncə şəhərinə gələrək şəhər sakini, hazırda həbsdə olan Hamlet Abdullayevdən 1 ədəd "Kalaşnikov" markalı avtomat silah və 1 ədəd "Makarov" markalı tapança alıblar. Lakin həmin dövrdə planlaşdırdıqları cinayətkar əməllər baş tutmadığından silahları Hamlet Abdullayevə qaytarıb ölkəni tərk ediblər.

## Baş Prokurorluq, DİN və DTX birgə məlumat yaydı



Dini radikalizmə meylli Hamlet Abdullayev həmin silahları və "Marqulin" markalı daha 1 ədəd tapançanı onunla eyni radikal dini baxışları bölüşən və 2018-ci il iyulun 21-də keçirilmiş xüsusi əməliyyat zamanı silahlı müqavimət göstərdiyinə görə məhv edilmiş Anar Bağırovla birgə Gəncə şəhər sakini Pərviz Bayramovdan və 2015-ci ildə avtomobil qəzasında ölmüş Məhəmməd Əzizovdan 500 manata alıb.

Gəncə şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyevə qarşı terror aktı törətməkdə təqsirləndirilən Yunis Səfərov həmin silahları müvəqqəti qaytardıqdan sonra Hamlet Abdullayev "Makarov" tapançasını pul müqabilində Pərviz Bayramova və "Kalaşnikov" avtomatını dayısı, Gəncə şəhər sakini Aydın Qurbanova vermiş, "Marqulin" markalı tapança isə Anar Bağırovda qalıb.

Aydın Qurbanovun və Anar Bağırovun gizlətdikləri silahların və sursatın yerinin müəyyən edilməsi məqsədilə onların Gəncə şəhərində qeydiyyatda olduqları ünvanlarda axtarış aparılıb. Nəticədə Aydın Qurbanovun yaşadığı binanın çardağından "Kalaşnikov" avtomatı, ona aid 56 ədəd patron və 1 ədəd sandıqça, Anar Bağırovun yaşadığı binanın zirzəmisindən "Marqulin" markalı tapança, ona aid 47 ədəd patron, 132 ədəd avtomat patronu, "Teksun" yağ qabının içində gizlədilmiş daha 273 ədəd avtomat və tapança patronu, 8 ədəd sandıqça, habelə mənzilindən radikal dini məzmunlu materiallar olan və faşizmi təbliğ edən 36 ədəd kompakt disk aşkar edilərək götürülüb.

Aydın Qurbanov və Pərviz Bayramov Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 228.3-cü (mütəşəkkil cinayətkar dəstə tərəfindən qanunsuz olaraq odlu silah, döyüş sursatı əldə etmə, başqasına vermə, satma, saxlama, gəzdirmə, daşıma) maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb olunaraq barələrində məhkəmə tərəfindən həbs qətimkan tədbiri seçilib.

**Müvafiq cinayət işi üzrə istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri intensiv surətdə davam etdirilir.**

## 500 min mənimsəyən MMC sədri ev dustağı edildi

### Əyyub Əhmədov barəsində cinayət işi başlanılıb

**Aqroinvest Kredit İttifaqı Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) İdarə Heyətinin sədri Əhmədov Əyyub Əlihüseyn oğlunun barəsində cinayət işi başlanılıb.**

"Report"un əldə etdiyi məlumata görə, o, MMC-nin 470 min manat pulunu mənimsəməkdə və vəzifə səlahiyyətlərindən sui-istifadə etməkdə təqsirləndirilir.

Ə.Əhmədova qarşı Cinayət Məcəlləsinin 179.3.2-ci (mənimsəmə və ya israf etmə, külli miqdarda törədildikdə) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə ittiham irəli sürülüb.

İstintaq dövründə onun barəsində ev dustaqlığı qətimkan tədbiri seçilib.

Ə.Əhmədovun cinayət işi üzrə ibtidai istintaqı yekunlaşdırılaraq Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib. Məhkəmənin hazırlıq iclası avqustun 21-nə təyin edilib.

Cinayət işi hakim Eldar Mikayılovun icraatına verilib.

Qeyd edək ki, Aqroinvest Kredit İttifaqı Azərbaycan Mərkəzi Bankının 2001-ci il tarixli daimi lisenziyasına əsasən yaradılıb. Aqroinvest Kredit İttifaqı MMC kimi 6 aprel 2001-ci ildə İmişli şəhərində təsis olunub.

# YAP funksioneri İlqar Məmmədovu müxalifətdən müdafiə etdi

## Aydın Mirzəzadə: "İlqar Məmmədovun azadlığa buraxılması müxalifət liderlərini narahat edir"



**REAL Partiyasının sədri İlqar Məmmədovun 5 il yarımdan sonra azadlığa çıxmasından sonra demokratik düşərgə daxilində canlanma yarada biləcəyi, eləcə də, digər siyasi qurumlarla əməkdaşlıq edib-etməyəcəyi ilə bağlı müxtəlif mövqelər var. Yeni Azərbaycan Partiyasının İcra Katibliyinin Siyasi təhlil və proqnozlaşdırma şöbəsinin müdiri, deputat Aydın Mirzəzadə unikal.org-a açıqlamasında REAL rəhbərinin azad olunmasına münasibət bildirərkən bir sıra diqqətçəkən fikirlər səsləndirib.**

"Aydın məsələdir ki, ayrı-ayrı ənənəvi müxalifət liderləri öz zonasında yeni bir iddiaçının olmasında maraqlı deyil. Çünki, bu iddiaçı güclü iqtidardan deyil, məhz müxalifətin sosial bazasından öz tərəfdarlarını qoparacaq. Buna görə də, İlqar Məmmədovun həbsinin şərti cəza ilə azadlığa buraxılması müxalifət liderlərini narahat edir. Buna görə də müxtəlif versiyalar irəli sürürlər. Onun azadlığa çıxma məsələsinə kölgə salmağa və qısqanclıqla qarşılamağa çalışırlar. Bu gün müxalifətin müəyyən qanadları İlqar Məmmədov faktorunu sıradan çıxarmağa çalışırlar. Onu öz təsiri altına almağa, yaxud da onun yenidən səhv addımlar atmasına səy göstərirlər. Bu gün radikal müxalifət üçün İlqar Məmmədov həbsdə olması daha əlverişlidir. Çünki, belə olduğu halda onların sosial bazasına göz dikəcək bir rəqiblərini sıradan çıxarmış olurlar"-deyə, deputat bildirib.

**REAL-ın İdarə Heyətinin üzvü Natiq Cəfərli** "Yeni Müsavat"a deputatın fikirlərini bu cür şərh etdi: "Aydın Mirzəzadə daha açıq danışsa yaxşı olardı. Bəlkə onların əllərində hansısa faktlar var. İlqar Məmmədov bir neçə gündür azadlıqdadır. Azadlığa çıxdığı gün cib telefonu işləmirdi. Təbii ki, 5 il yarım həbsdə olan bir insanın nömrəsi deaktiv olmuşdu. Bütün müxalifət liderləri, o cümlədən, İsa Qəmbər, Arif Hacılı mənə zəng etdilər, təbriklərini çatdırdılar. İlqara da təbriklərini çatdırmağımı xahiş etdilər. Eyni zamanda, ev telefonunu istədilər ki, danışa bilsinlər. Bildiyim qədəri ilə Əli Kərimli də zəng edib, öz təbrikini çatdırıb. Bir çox müxalifət funksionerləri İlqarın evinə yaxud ofisimizə gələrək onunla görüşüblər. Ola bilsin ki, İlqarın azadlığa çıxması, gələcəkdə REAL-ın daha da güclənməsi bir müddətdən sonra bir çox siyasi partiyalarda müəyyən qısqanclıq yaratsın. Amma hələ ki ciddi şəkildə Aydın Mirzəzadənin dediyi bir vəziyyət yoxdur. Əgər onun əlində belə bir fakt, informasiya varsa, mətbuat vasitəsilə cəmiyyətlə bunu bölüşməsi daha doğru olardı. Bir düşərgə daxilində çaşqınlıq, qarşıdurma yaratmaq üçün də belə fikirlər ortaya atıla bilər. Aydın Mirzəzadə çalışa bilər ki, rəqib saydığı düşərgədə müəyyən söz-söhbətlərin yaranmasına şərait yaratsın. Aydın Mirzəzadə və digər YAP-çılara məsləhətim o olardı ki, bunu çox primitiv şəkildə etməsinlər. Heç olmasa bir düşünülmüş addımlar atsınlar".

**N.Cəfərli YAP funksionerinin fikirlərində müəyyən həqiqətlərin olduğunu da söylədi:** "Qlobal götürdükdə, onun müxalifət düşərgəsinin bir siyasi rəqibin səhnəyə çıxmasını istəmir kimi fikirlərində müəyyən həqiqətlər var. Çünki REAL-ın sosial bazası ənənəvi müxalifətin bazası kimi deyil. Yarandığımız ilk günlərdən demişik ki, biz orta sinfin, orta sahibkarlığın, gəncliyin, tələbələrin, hətta dövlət vəzifələrində çalışan orta və kiçik məmurların, yeniliyin, rifahçıların, cümhuriyyətçilərin partiyası olmaq üçün çalışacağıq. Bizim hazırkı hədəflərimiz də budur. 68 səhifəlik proqramımız var. Çox yaxşı olardı ki, belə boş söhbətlər etməkdənsə, həm iqtidar, həm də müxalifət partiyaları normal şəkildə bir proqram ortaya qoysunlar. Nəticədə ideologiyalar üzərindən bir diskussiya ortamı yaransın. Açığı hazırda siyasət aləmindəki ortamı diskussiya ortamı adlandırmaq olmaz. Ortada qeybət ortamı var. Bu da çox üzücü bir haldır. İlqar Məmmədov azadlığa çıxdıqdan sonra digər siyasi partiyaların liderləri tərəfindən görüş üçün müraciət olsaydı, İlqar bəy bundan imtina etməzdi. Belə bir cəhdlərin olmaması suallar doğurur. Çünki bu günə qədər həbsdən çıxan siyasi məhbuslarla görüşə can atan müxalifət liderlərinin davranışını görmüşük. Görünür hələ ki, belə bir görüşə ehtiyac duymayıblar".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 176 (7065) 18 avqust 2018

**Tanınmış politoloq, Atlantik Əməkdaşlıq Assosiasiyasının rəhbəri Sülhəddin Əkbərlə müsahibənin ikinci hissəsini təqdim edirik.**

# "Sanksiyalara qoşulmasaq, çox pis nəticələri ola bilər"

## Sülhəddin Əkbər: "Rusiya ABŞ dərin dövlətinin Qorbaçovu ələ keçirməsinin intiqamını alır"

*(əvvəli ötən sayımızda)*

***- Bu istiqamətlər hansılar olacaq?***

- İlk növbədə iqtisadi bloklarla müəyyən yaxınlaşmalar olacaq. Eyni zamanda ikitərəfli qaydada müxtəlif ölkələrlə iqtisadi münasibətlərini gücləndirəcək. Burada söhbət müəyyən Körfəz ölkələrindən, Afrika istiqamətində, Latın Amerikası istiqamətindən gedir. Həmçinin türkdilli ölkələrlə də münasibətlərin daha geniş müstəvidə qurulması gedəcək. Rusiya ilə münasibətlərin yumşalması fonunda bunun üçün əlverişli zəmin də formalaşır. Bu baxımdan, Azərbaycanın strateji önəmi, Xəzərin strateji önəmi də Türkiyə xarici siyasəti üçün artacaq.

***- Belə bir deyim yaranıb ki, "Trampla Ərdoğan savaşacaq, Putin qalib gələcək". Sizcə, nə qədər reallığa uyğun deyimdir? Bu gərginləşmədən Rusiya həqiqətənmi belə böyük qazanc əldə edəcək?***

- Bunun hamısı Tramp administrasiyasının apardığı yanlış siyasətlə bağlıdır. Baxın, Tramp və onun ətrafında hakimiyyətə gələnlər bu siyasəti yalnız Türkiyəyə qarşı aparmır ki? Ümumiyyətlə, Tramp administrasiyası oturuşmuş qlobal liberal-demokratik düşünənlərə qarşı müharibə elan edib. Tramp hakimiyyətə gələn kimi "Asiya-Pasifik" anlaşmasından çəkildiyini bəyan etdi. Transatlantik münasibətlərdə vəziyyət tamamilə dəyişdi, Avropa Birliyi ilə ticarət və investisiya cəlbi ilə bağlı danışıqları dayandırdı. NATO-da daxili münasibətləri gərginləşdirdi, Alyans üzvləri ilə qarşıdurmaya getdi, NAFTA-ya(Şimali Amerika Azad Ticarət Zonası Sazişi) yenidən baxılacağını bildirdi. Dünya Ticarət Təşkilatının qaydalarına zidd olan hərəkətlərə, Almaniya və Avropa Birliyi ilə münasibətləri pozmağa başladı.

***- Bunlar Rusiyanın maraqlarına nə qədər uyğundur?***

- Əslində Tramp birbaşa Rusiyanın maraqlarına xidmət edən, Putin Rusiyasının yuxusunda belə görə bilmədiyi siyasəti yürüdür. Rusiya təsəvvür belə etməzdi ki, soyuq savaşda məğlub olduqdan sonra ABŞ-da belə bir prezident hakimiyyətə gələcək və onun intiqamını alacaq. Düşünürəm ki, Rusiya dərin dövləti Trampı ələ keçirməklə ABŞ dərin dövlətinin Mixail Qorbaçovu ələ keçirməsinin intiqamını alır hazırda. Bu, mənim sabiq təhlükəsizlik işçisi kimi gəldiyim qənaətdir. Və ABŞ dərin dövləti bunu bilir. Bu gün Trampın Amerika dərin dövləti ilə müharibəyə girişməsi də bununla bağlıdır. Tramp Amerikada paralel olaraq öz dərin dövlətini qurur. Yəni bu gün Trampı hakimiyyətə gətirən qüvvələr - yəhudi və xristian sionistlər ABŞ dərin dövlətini parçalayıb. Anqlosaksonlarla yəhudi-yevangelistlər bir-birinə qarşıdır. Trampın Londona səfərini istəməyənlər də yəhudi və yevangelistlər idi. Trampın Rusiya ilə əlaqələrini araşdıran prokuror Miller də anqlosakson qanadın təmsilçisidir. Tramp bu qanadın bir neçə məşhur simasına xüsusi informasiya bazasına çıxışına qadağa qoyub.



Bir sözlə, dünyada qlobal güc savaşı gedir. Burada mən rus kəşfiyyatının böyük uğurunu görürəm. Rus dərin dövləti ABŞ dərin dövlətində və siyasətində öz maraqlarına uyğun qüvvələri hakimiyyətə gətirməyə nail olub. Eyni zamanda Rusiyanın İsraillə indiyədək heç olmayan qədər yaxınlaşması gedir. Düşünürəm ki, yəhudi lobbisi indiyədək heç zaman dünya miqyasında bu qədər güclü olmayıb. Amma fikrimcə, bunun da əks-reaksiyası olacaq. Bu reaksiyanı isə anqlosaksonlar verəcəklər.

***- Sülhəddin bəy, bildiyiniz kimi bu günlərdə Qazaxıstanın Aktau şəhərində Xəzəryanı ölkələrin dövlət başçıları tərəfindən konvensiya imzalandı. Bu sənədi Azərbaycanın mənafeyi baxımından necə dəyərləndirirsiniz?***

- Bilirsiniz, birincisi, burada Azərbaycanın mənafeyindən söhbət belə gedə bilməz. Xəzərdə yüz illərdir Rusiya hökmrandır. Çar Rusiyasının dövründən başlayaraq, sovet Rusiyasında da bu hökmranlıq davam edib. Bu konvensiya ilə yeni şəraitdə Rusiya öz hegemoniyasının hüquqi təminatını da yaratdı. Xəzərdə yeganə hərbi güc olduğunu de-yure təsdiq etdirdi. Eyni zamanda Xəzərə sahili olmayan güclərin, xüsusən də ABŞ və onun müttəfiqlərinin, NATO-nun Xəzərə çıxışının hüquqi cəhətdən önünü kəsdi. Çünki konvensiyanı imzalayan tərəflər hüquqi cəhətdən öhdəlik götürürlər ki, onlar Xəzərdə sahili olmayan ölkələrin hərbi iştirakına icazə verməyəcəklər. Digər məsələlər Rusiya üçün elə də önəmli deyil. Buna görə də mən bu konvensiyanı Rusiyanın nəinki siyasi-diplomatik, ümumiyyətlə, bütün sahələrdə qələbəsi hesab edirəm.

İlk baxışdan belə görünə bilər ki, Azərbaycanın mənafeyi baxımından Transxəzər layihələrinin icrasına "yaşıl işıq" yandırılıb. Lakin sənəddə belə bir müddəa var ki, Transxəzər layihələrinin icra olunması üçün onların dənizin ekologiyasına zərər vurmadığına dair bütün sahilyanı ölkələrin rəyi alınsın. Yəni Rusiya burada da ekologiya rıçağını saxlayır əlində.

Digər tərəfdən, konvensiya Xəzərin dibinin bölünməsi ilə bağlı əsas mübahisələri də həll etmir. Əsas mübahisələr isə Azərbaycanla Türkmənistan və İran arasındadır. Xəzərin şimal sahillərində dibin bölgüsü Rusiya, Qazaxıstan və Azərbaycan arasında ikitərəfli qaydada həll edilib. Amma Azərbaycanın Türkmənistan və İranla belə sazişləri yoxdur. Bu mübahisələrin həllində həm Azərbaycan, həm də Türkmənistan çalışacaqlar Rusiyadan dəstək alsınlar. Bu isə hər iki ölkəni Rusiyadan asılı edəcək. Bir sözlə, Rusiya bu konvensiya ilə əldə etmək istədiklərinin hamısına nail oldu.

***-ABŞ-ın İrana qarşı sanksiyalarının bir hissəsi qüvvəyə mindi. Payızda da daha bir qismi minəcək. Son vaxtlar Azərbaycanın İranla əlaqələrində xeyli inkişaf baş verib. Azərbaycan bu ölkəyə 500 milyon dollar kredit ayırıb, İranın Azərbaycanda layihələri var. İran həm də Azərbaycanın regional tranzit mərkəzinə çevrilməsi istiqamətində açar ölkələrdən biridir. Sizcə, Azərbaycan İrana qarşı sanksiyalardan kənarda qala biləcəkmi?***

- Çox təəssüf ki, Azərbaycanın belə gücü yoxdur. Azərbaycan çoxsaylı problemləri olan kiçik bir ölkədir. ABŞ kimi supergücün təzyiqləri qarşısında tab gətirmək onun imkanları xaricindədir. Ona görə də mən Azərbaycanın bu sanksiyalara əməl etməkdən başqa yolunun olmadığını düşünürəm. Əks halda, çox pis nəticələri ola bilər. Çünki İrana qarşı budəfəki sanksiyalar əvvəlkindən daha kəskin və daha əhatəlidir. Yalnız sanksiyanı pozan deyil, onunla əməkdaşlıq edənlər də cəzalanacaq. Yəni üçüncü tərəflər də sanksiyalara məruz qalacaq. Bu baxımdan, Azərbaycanın sanksiyalara əməl edəcəyini düşünürəm.

Tramp administrasiyası və İsrail bu məsələyə çox ciddi yanaşır. Elə Türkiyə ilə Amerikanın münasibətlərində yaranan son gərginliyin bir səbəbi də Ərdoğanın İranla bağlı məsələdə ABŞ-ın yanında yer almamasıdır.

Onu da nəzərə almaq lazımdır ki, artıq ABŞ Azərbaycanın marağını nəzərə alan addım atıb - "Şahdəniz-2" layihəsini sanksiyalardan kənarda qoyub. Bildiyiniz kimi, İran şirkəti bu layihədə iştirak edir. Düşünürəm ki, ikinci belə bir istisna edilsin. İsraillə Azərbaycanın münasibətlərinin bugünkü səviyyəsini, xüsusən də Gəncədə baş verən hadisələrdən sonra Azərbaycanın İrana yönəlik dəyişiklikləri nəzərə alsaq, mənə elə gəlir ki, Azərbaycan ABŞ və İsrailin yanında yer alacaq.

❑ **Dünya SAKİT, "Yeni Müsavat"**

# Cəmiyyətdə polemika mədəniyyəti niyə yoxdur?

## Azad İsazadə: "Hamı danışmaq istəyir, dinləmək isə istəmir"



**Son vaxtlar cəmiyyətimizdə aqressiya, özünü ifadə edərkən söyüş ifadələrindən istifadə adiləşməyə başlayıb. İstər ictimai-siyasi, istərsə də ədəbi mühitdə olan müzakirələrdə aqressivlik, leksikonda söyüş, hədyan müşahidə olunur. Nadir hallarda təmkinli və fikir plüralizmi ilə müzakirələr aparılır.**

Bu cür aqressiya xüsusən də sosial şəbəkələrdə baş verir. Xüsusən də müxalif nümayəndələr, yazarlar bir-birinə qarşı söyüşlü, həqarətli replikalar atır, ağır ittihamlar edir.

Bu səbəbdən hansısa məmur və ya nüfuzlu şəxslər sosial şəbəkələrdə təhqir olunmaqdan çəkindikləri üçün mətbuata açıqlama, müsahibə vermək istəmir. Bu cür halla mətbuat nümayəndələri tez-tez rastlaşır. Məsələn, bu günlərdə jurnalist sabiq təhsil naziri Misir Mərdanovdan hansısa məsələ ilə bağlı rəy almaq istəyərkən, o, danışmaq istəmədiyini, çünki sonradan təhqirlə üzləşdiyini deyib:

"Danışığımı müxtəlif cür yozurlar. Mən danışıram, başqası yanına bir şey qoşur. İstəmirəm ki, kimlərinsə təhqiri ilə üzləşim..."

Bir sözlə, cəmiyyətdə polemika mədəniyyəti deqradasiyaya uğrayıb. Bəs səbəb nədir? İnsanlar niyə bu üsula əl atır, özlərini ifadə edə bilmir, yoxsa?..

Mövzu ilə bağlı **psixoloq Azad İsazadə** "Yeni Müsavat"a danışıb:

"Bəli, bu doğrudur ki, cəmiyyətimizdə aqressiya çoxalıb. Təkcə Azərbaycan deyil, hazırda bütün dünya bu cür period yaşayır, aqressiyanı biz hər yerdə görürük. Bu səbəbdən real müharibələr də artıb. Aqressiv davranış artıq normal vəziyyətə çevrilməyə başlayıb.

Ölkəmizdə bu problemin yaranmasının əsas, konkret səbəblərindən biri odur ki, biz bir-birimizi artıq dinləmək istəmirik, icazə vermirik ki, qarşı tərəf bir fikir, rəy bildirsin. Bəzən insanların öz fikrini bildirməsi çox çətin olur. İnsan var ki, bir neçə cümlədən sonra öz fikrini tamamlaya bilir, lakin əks tərəfin rəyini dinləməyə səbri çatmır, dediyi sözü səhv anlayırıq. Hətta bəzən hansısa sözü kontekstdən çıxarıb, başqa tərəfə yozuruq. İlk növbədə biz bir-birimizi dinləməliyik. Hamı danışmaq istəyir, dinləmək isə istəmir.

Söyüş ifadələrindən istifadə etmək isə konkret mədəniyyət məsələsidir. İnsan var ki, ümumiyyətlə söyüşdən istifadə edə bilmir, nə məişətdə, nə də başqa yerdə. Əgər bir arqument deyilirsə, onu eşitmək və ya anlamaq istəmirlərsə, bu dəfə söyüşə keçirlər. Yəni insanların sözü keçməyəndə ya gücə, ya da söyüşə əl atırlar".

❑ **Xalidə GƏRAY, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 176 (7065) 18 avqust 2018



# Merkelin səfəri xaricdəki anti-Azərbaycan qüvvələrini hərəkətə keçirib

## Fəzail Ağamalı: "Xarici İşlər Nazirliyinin bununla bağlı göstərdiyi fəaliyyət məni qətiyyən qane etmir"

**Avqustun 25-də Almaniya kansleri Angela Merkel Cənubi Qafqaz ölkələrinə səfəri çərçivəsində Azərbaycana gələcək. Xanım kanslerin səfəri ölkə müxalifətinin ciddi narahatlığına səbəb olub. Bunu sosial şəbəkələrdə paylaşılan statuslarda görmək mümkündür. Merkelin ünvanına sərt tənqidi fikirlər yer almaqdadır.**

Bu səfərin son bir ildə Almaniyada formalaşan "söyüş müxalifəti"nin sonunu gətirə biləcəyi barədə mövqelər səslənməkdədir. Merkelin Azərbaycan prezidenti səviyyəsində keçirəcəyi görüşlərdə Almaniyada mövcud olan və günü-gündən fəallaşan bu müxalifətin müzakirə mövzusu olacağı istisna edilmir.

**Ana Vətən Partiyasının sədri, deputat Fəzail Ağamalı** "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Merkelin səfəri Almaniyanın Cənubi Qafqaz ölkələrinə ciddi şəkildə maraq göstərdiyini sübut edir: "Belə səfərlər bir qayda olaraq heç zaman təsadüfi xarakter daşımır. Bu səfərlərin arxasında siyasi, iqtisadi, dövlətlərin maraqlarına xidmət edən planlar durur. Güman edirəm ki, Merkelin səfəri də bu baxımdan istisnalıq təşkil etmir. O, Azərbaycana səfərində necə deyərlər, müzakirə ediləcək dolu çamadanla gəlir. Almaniya ilə ölkəmiz arasında iqtisadi münasibətlər çox yüksək səviyyədədir. Çoxsaylı alman şirkətləri Azərbaycanda fəaliyyətlərini qurublar. Rəsmi Bakı da Almaniya ilə iqtisadi, ticari münasibətlərin ən yüksək səviyyədə qurulmasında maraqlıdır. Deyərdim ki, Almaniya Avropanın ən inkişaf etmiş ölkəsidir. Bunu xüsusi olaraq qeyd edirəm. Yüksək texnologiyası var. Azərbaycanın da bu cür texnologiyalara söykənərək, yüksək səviyyədə texnologiyalara malik olması hədəfi var. Bütün bunlar hesab edirəm ki, Merkelin səfəri zamanı ciddi müzakirə mövzularından biri olacaq. "Söyüş müxalifəti" məsələsi də heç bir halda diqqətdən yayınmalı deyil. Biri var ki, hansısa səbəbdən xaricə gedəsən, orada etik qaydalara əməl edərək, normaları, prinsipləri pozmadan, qırmızı xətti keçmədən, təhqirlərə, iftiralara, böhtanlara yol vermədən Azərbaycanda gedən proseslərə öz tənqidi fikirlərini bildirəsən, tənqidi münasibətində də əslində ölkənə xidmət missiyasını yerinə yetirəsən, buna heç bir halda pis baxmaram. Amma siyasi mühacir adı altında gedərək orada öz həyatlarını yüksək səviyyədə qurmaq üçün ayrı-ayrı anti-Azərbaycan qüvvələrinin qucağına sığınıb, ondan maliyyə alaraq ölkənə qarşı düşmənçilik mövqeyi nümayiş etdirmək bağışlanılmazdır. Bunun bir adı var, vətənə, dövlətə xəyanət. Məlum olduğu kimi, Almaniyada "söyüş müxalifəti" deyilən bir qrup var. Onlar Almaniyanın imkanlarından istifadə edərək, bu gün internetin imkanlarından yararlanaraq Azərbaycana qarşı sözün həqiqi mənasında ermənidən betər düşmənçilik mövqelərini ortalığa qoymaqdadırlar. Eyni zamanda, onlar müəyyən mövzuları ortalığa gətirməklə, söyüşlərlə həm də insanları sosial şəbəkələrə daşıyaraq şər-böhtan, təhqir platformasını yaradırlar. Bunun özü xüsusilə yolverilməzdir, ciddi təhlükədir. Mənə elə gəlir ki, bu məsələ səfər zamanı mütləq müzakirə edilməlidir. Bunun hansı şəkildə müzakirə ediləcəyini deyə bilmərəm. Cənab prezidentin adından danışmaq səlahiyyətinə malik deyiləm. Amma düşünürəm ki, Azərbaycanın, dövlətimizin maraqları, eləcə də, cənab prezidentin konstitusiya ilə qorunan şərəf və ləyaqəti hökmən təmin olunmalıdır. Buna ölkə qanunları tamamilə əsas verir. "Söyüş müxalifəti"nin təmsilçiləri olan bu tərbiyəsiz insanların internet vasitəsilə danışıqları belə hiddət doğurur. Videolar, görüntülər yayırlar, həmin görüntülərdə bütün şərəfsizliklərə əl atırlar. Bu baxımdan hesab edirəm ki, Merkel səviyyəsində bu məsələ qaldırılmalıdır. O da Almaniyanın qanunları çərçivəsində bununla bağlı konkret addımlar atmalıdır. Belə bir müqayisə aparaq. Bu cür müxalifət Azərbaycanda Almaniyanın kansleri, çox hörmətli Angela Merkel əleyhinə fəaliyyət aparsaydı, O bundan narahat olardı ya yox? Düşünürəm ki, hökmən narahat olardı. Bu məsələ dövlətlər səviyyəsində mütləq müzakirə edilməli, buna son qoyulmalıdır".



**Deputat "söyüş müxalifəti" ilə bağlı Azərbaycan Xarici İşlər Nazirliyinin fəaliyyətini tənqid etdi:** "Xarici İşlər Nazirliyinin bununla bağlı göstərmiş olduğu fəaliyyət məni qətiyyən qane etmir. Düşünürəm ki, bir çox vətəndaşları da qane etmir. Bununla bağlı nazir öz addımlarını atmalıdır. Demirəm ki, bunu hansısa formada açıq edə bilər. Diplomatik kanallarla Almaniya və başqa ölkələrin rəsmilərinə çatdırıla bilər ki, Azərbaycanın atributları tənqid olunur, ölkəmizə böhtanlar atılır. Əslində dünyanın bütün liderləri tənqid oluna bilər. Prezidentimizə də bu və ya digər məsələlərdə onun siyasətinə müxalif olaraq tənqidi münasibət ola bilər. Amma hər şey çərçivədə olmalıdır. Bu münasibət etik normaları aşmalı deyil. Avropa ölkələrinə gedərək özlərini siyasi mühacir adı altında təqdim edib bu cür tərbiyəsiz hərəkət edənlərin müxalifətlə heç bir əlaqəsi yoxdur. Onlara müxalifət deməyə də heç bir əsas yoxdur. "Söyüş müxalifəti"ndən başqa bir şey deyillər. Açığını deyim ki, onları artıq izləmirəm. Çünki onların söyləmiş olduğu fikirlər o qədər ikrah hissi oyadır ki, bu, daxilimdə olduqca mənfi emosiyalar yaradır. İnsan da bu emosiyaları yaşamaq istəmir. Əslində onlar bu fəaliyyətlə Azərbaycan xalqına qarşı mənəvi terror həyata keçirirlər. Xalqımız söyüşkən deyil, yüksək intellektə, mədəniyyətə sahibdir. Bu cür insanlar xalqımızın dəyərlərindən kənarda olaraq almış olduqları mədəniyyətə uyğun şəkildə belə hərəkətlərə yol verirlər. Qətiyyən şübhə etmirəm ki, onlar ermənilərdən pul alırlar. Ermənilərin qucağında oturub, onların maliyyəsi ilə qidalanan insanlardır. Belə şəxslərə qarşı bütün səviyyələrdə qanunlar çərçivəsində mübarizə aparılmalıdır. Bunun ən böyük funksiyası da Azərbaycan Xarici İşlər Nazirliyinin üzərinə düşür".

❑ **Cavanşir ABBASLI**
**"Yeni Müsavat"**

# "Amnesty International"ın İran hesabatına Bakıdan reaksiya

## Sabir Rüstəmxanlı: "İrandakı azərbaycanlıların vəziyyəti heç bir hesabata sığmaz"

**"Amnesty International" son vaxtlar İran Azərbaycanında Babək Qalası və Savalan Dağı yürüşləri zamanı baş verən həbslər haqqında türk, fars və ingilis dillərində ətraflı hesabat yayıb.**

Qurumun hesabatına görə, keçən həftələr Şərqi Azərbaycan və Ərdəbil vilayətlərində təşkil olunan Babək Qalası və Savalan Dağı yürüşləri ilə əlaqədar təqribən 120 türk fəal saxlanılıb.

7 səhifəlik sənəddə yazılanlara görə, "Amnesty International"ın əməkdaşları bu hesabatı hazırlamaq üçün 10-dan artıq şəxslə müsahibə keçirib və bir çox məhkəmə hökmünü nəzərdən keçirib. Qurum həmçinin İran Azərbaycanında baş verən insan haqları pozuntuları ilə əlaqədar fəaliyyət göstərən (AHRAZ) cəmiyyətindən məlumatlar alıb.



**Vətəndaş Həmrəyliyi Partiyasının sədri Sabir Rüstəmxanlı** "Yeni Müsavat"a bildirib ki, doğrudan da İranda azərbaycanlıların vəziyyəti çox ağırdır: "İranda 35 milyondan çox olan azərbaycanlıların vəziyyəti, insan haqları ilə məşğul olan beynəlxalq qurumların heç bir hesabatına sığmayacaq dərəcədə ağırdır. Bunu 5-10 səhifə yazı ilə ifadə etmək də çətindir. Biz bu məsələni Amerika, Avropa parlamentlərində, təşkilatlarında, eyni zamanda müxtəlif qurumlarda dəfələrlə dilə gətirmişik. Kimlərinsə həbsi, hansısa haqqın pozulması ümumi millətin vəziyyəti ilə müqayisədə əslində xırda məsələdir. Bütövlükdə 35 milyonluq bir xalq əsarət altındadır. Bir millətin ki, varlığı, adı danıla, dilində danışmaq, uşağına öz dilində ad vermək yasaqlana, tarixi təhrif oluna daha nə demək olar? Orada 5-10 nəfərin həbsi bütün bunlarla müqayisədə o qədər də təəccüblü görünmür. İran 90 ildən artıqdır ki, bu siyasətini davam etdirir. Molla rejimində də nə qədər Ana Yasada vədlər verilsə də, əslində heç nə dəyişilmir. O boyda millətin ana dilində bir dənə məktəbi yoxdur və öz dilindən istifadə hüququ pozulur. Bundan başqa Urmiya gölü də quruyur və orada təxminən 10 milyard ton miqdarında duz var. O duz artıq Urmiyanın dağlarına, torpaqlarına yayılır. 5-10 il sonra bütün güney Azərbaycan duzun altında qalacaq. Buna həsr olunmuş beynəlxalq toplantılar keçirilib, İrana tövsiyələr verilib. Lakin bütün bunların heç biri nəzərə alınmır. Yeni düşünülmüş şəkildə İran Azərbaycanını elə bir ekoloji duruma salırlar ki, əhali orada yaşamasın, köçüb getsin. Beləliklə də bir xalqın mübarizəsi də dayansın, varlığına da nöqtə qoyulsun. Bütün bu kimi hadisələrlə müqayisədə yazılan sənəd çox yumşaqdır. Ondan qat-qat artıq faktlar qeyd olunmalıdır".

**S.Rüstəmxanlı Babək qalasını ziyarət edənlərə qarşı göstərilən aqressiyanın səbəbindən də danışıb:**

"Bir neçə il icazə verdilər ki, millət çıxıb, tarixi abidəsini ziyarət etsin. Ancaq sonra millətin birliyi onları qorxutdu. Orada heç bir siyasi şüar olmasa, heç bir bayraq qaldırılmasa belə, millətin birliyi onları qorxuya saldı və buna qadağa qoyuldu. Biz - Dünya Azərbaycanlıları Konqresi Babək qalasına qadağaya cavab olaraq bir neçə il buradakı gənclərimizi Altıağacda, Yardımlıda köhnə qalacığa aparırdıq. Lakin bu işlər də dayandı. İmkanımız olmadığı üçün prosesi davam etdirə bilmədik. Babək qalasına çıxmağa qadağanın qoyulması absurddur. Xalqın təbii haqqıdır ki, qalasına çıxıb, qəhrəmanını yad etsin. Təəssüf ki, buna da maneə yaratdılar".

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 176(7065) 18 avqust 2018

**Avqustun 8-də axşam saatlarında Lerik rayonunun Kıncıvo kənd sakini, 2000-ci il doğumlu Fəhmin Akif oğlu Əbilovun "N" saylı hərbi hissədə özünü güllə ilə vuraraq öldürdüyü bildirilirdi.**

# Əsgər ölümünə görə üç nəfər qandallandı-cinayətin xronikası

## İlkin istintaq müəyyən edib ki, intihar edən Fəhmin Əbilov əsgərlər tərəfindən zorakılığa məruz qalıb

Mərhum əsgərin yaxınları isə mediaya açıqlamalarında Fəhmin Əbilovun özünü öldürmə ehtimalının olmadığını, bədənində yara və zorakılıq izləri aşkarlandığını bildirmişdilər. Avqustun 13-də baş prokuror Zakir Qaralov Fəhmin Əbilovun atası Akif Əbilovu qəbul edib. Baş prokuror Akif Əbilovu cinayət işi üzrə istintaqın gedişatı barədə məlumatlandırıb, ona istintaqın tam, hərtərəfli və obyektiv aparılaraq övladının ölümündə təqsirli olan bütün şəxslərin cinayət məsuliyyətinə cəlb olunaraq barələrində qanunamüvafiq tədbirlərin görüləcəyini bildirib.

**Avqustun 17-də bu hadisə ilə bağlı rəsmi məlumat yayılıb. Məlumatda deyilir:** "8 avqust 2018-ci il tarixdə Müdafiə Nazirliyinin N saylı hərbi hissəsindən Qarabağ hərbi prokurorluğuna həmin hərbi hissənin əsgəri Fəhmin Əbilovun avtomat silahdan atəş açaraq özünü öldürməsi barədə məlumat daxil olmuşdur. Həmin məlumat əsasında Qarabağ Hərbi Prokurorluğunun əməkdaşları tərəfindən dərhal hadisə yerinə baxış keçirilmiş, iş üçün əhəmiyyət kəsb edən predmetlər maddi sübut kimi götürülmüş, şahidlərin dairəsi müəyyən edilərək izahatları alınmışdır. Silahlı Qüvvələrin Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya (MTE və PA) Mərkəzi tərəfindən meyitin müayinəsi aparılmışdır".



Hərbi Prokurorluqdan musavat.com-a verilən məlumata görə, həmin tarixdə Qarabağ hərbi prokurorluğunda fakta görə Cinayət Məcəlləsinin 125-ci (özünü öldürmə həddinə çatdırma) maddəsi ilə cinayət işi başlanmışdır.

Zərərçəkmiş şəxsin valideynləri və yaxın qohumları tərəfindən Silahlı Qüvvələrin MTE və PA Mərkəzində aparılmış müayinənin obyektivliyi şübhə altına alındığından, cinayət işinin istintaqı Azərbaycan Respublikası Baş Prokurorluğunun rəhbərliyi tərəfindən xüsusi nəzarətə götürülərək işin hallarının tam, hərtərəfli və obyektiv araşdırılmasının təmin edilməsi məqsədi ilə istintaqın davam etdirilməsi Respublika Hərbi prokurorunun müavininə tapşırılmış və istintaq qrupu yaradılaraq hadisənin baş verdiyi hərbi hissəyə ezam olunmuşdur.

Avqustun 9-da Səhiyyə Nazirliyinin MTE və PA Elmi-Təcrübi Tədris Birliyində təcrübəli ekspertlər tərəfindən mərhumun yaxın qohumlarının iştirakı ilə meyitin təkrar müayinəsi aparılmışdır.

İlkin istintaqla müəyyən edilmişdir ki, əsgər Əbilov Fəhmin Akif oğlu xidmət müddətində müxtəlif vaxtlarda post başçısı gizir Xəlilov Elmir Rəsul oğlu və həmin postun əsgərləri Tanrıverdiyev Sənan Səbuhi oğlu və Arazov Rəşad Xəqani oğlu tərəfindən zorakı və qanunsuz hərəkətlərə məruz qalmışdır.

Həmçinin müəyyən edilmişdir ki, avqustun 8-də saat 11:45-də növbədə olan əsgər S.Tanrıverdiyev xidmət yerindən vaxtından əvvəl çıxıb silahını nəzarətsiz qoymuş, bundan istifadə edən əsgər F.Əbilov həmin silahı götürüb özünü öldürmüşdür.

Aparılmış ilkin istintaqla kifayət qədər sübutlar toplandığı nəzərə alınaraq üç hərbi qulluqçu iş üzrə təqsirləndirilən şəxs qismində cəlb edilməklə əsgər S.Tanrıverdiyevə Cinayət Məcəlləsinin 230 (odlu silahı diqqətsiz saxlama), 332.2.1, 332.2.3 (tabelik münasibətlərində olmayan hərbi qulluqçular arasında qarşılıqlı münasibətlərin nizamnamə qaydalarını pozma), 338.1 (döyüş növbəsi çəkmə qaydalarını pozma) və 341.3-cü (hakimiyyətdən sui-istifadə etmə, hakimiyyət həddini aşma və ya hakimiyyətdən istifadə etməmə), əsgər R.Arazova Cinayət Məcəlləsinin 332.2.1 və 332.2.3-cü, gizir E.Xəlilova isə həmin məcəllənin 331.2, 341.2.3 və 341.3-cü maddələri ilə ittiham elan edilərək barələrində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilmişdir".

# "Hadı Rəcəblinin mandatını alırlar" iddiası deputatı qəzəbləndirdi

## Deputat: "Mən artıq məcburam ki..."

**Sosial şəbəkələrdəki bəzi səhifələr müzakirələrlə Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəblini yenidən gündəmə gətirib.**

Bu səhifələrdə deputatın adından fikirlər yayılıb və Hadi Rəcəbliyə sosial şəbəkə istifadəçiləri tərəfindən kəskin etirazlar bildirilib.

Yayılan məlumatda bildirilib ki, Hadi Rəcəbli Milli Məclisin payız sessiyasında istefa verəcək və deputat mandatından məhrum edilməsi üçün Mərkəzi Seçki Komissiyasına müraciət edəcək.

Sosial şəbəkələrdə yayılan bu açıqlama Hadi Rəcəblini hiddətləndirib. Deputat modern.az-a açıqlamasında belə fikirlər səsləndirmədiyini vurğulayıb: "Sosial şəbəkələrdə hansısa səhifələrdə mənim adımdan yazılanlardan heç xəbərim yoxdur.



Mən bu cür fikirlər səsləndirməmişəm. Bu, növbəti dəfə mənim adımdan şərəfsizcəsinə yayılan və mənə qarşı aparılan təxribatdır. Bu qədər şərəfsiz, vicdansız hərəkət etmək olmaz.

Ataların belə bir sözü var: "Yalançının evi yandı, heç kəs ona inanmadı". Mən dövlətim və millətim üçün çalışan insanam. Bunu rəhbərlik etdiyim komitənin iş prinsipindən də görmək olar. Məhz ötən sessiyada ən çox qanun layihəsi hazırlayan, ən çox vətəndaşlarla görüşən mən və bizim komitənin üzvləridir. Nə qədər yalandan yazmaq olar? Mən artıq məcbur olub, belə adamları, səhifələri məhkəməyə verəcəyəm. Sadəcə ömrüm boyunca heç kimə pislik etmədiyim üçün bunu hələ ki etmirəm. Mənə qarşı olan bu hücumlara son qoyulmalıdır. Nə qədər mənim adımdan yalan yazmaq olar, bəsdirin də. Hər bir şəxs ədalət, qanun daxilində hərəkət etməlidir. Heç kəsin adından yalan yazmaq olmaz. Belə hesab edirəm ki, sonda mən bu materialların hamısını toplayıb hüquq-mühafizə orqanlarına müraciət edəsi olacağam. Mənə qarşı olan bu təxribat birinci dəfə deyil".

Hadi Rəcəbli Mərkəzi Seçki Komissiyasına müraciət etməyəcəyini bildirib: "Bunun üçün heç bir əsas yoxdur. Onu yazanların arzusu ürəyində qalacaq. Belə təhrif olunmuş fikirləri yazmaq olmaz. Bu tamamilə yalandır və böhtandır".

Deputatın Lənkərandan olan seçiciləri müraciət edərək, sosial şəbəkələrdə Hadi Rəcəbliyə qarşı aparılan qarayaxma kampaniyasını pisləyiblər. Onlar hüquq-mühafizə orqanlarından deputata qarşı aparılan təxribata hüquqi qiymət verilməsini istəyiblər.

# Merkitlərin və 16-cı müttəfiq respublikanın aqibəti...



Xalid KAZIMLI

**Dövlət müstəqilliyi böyük nemətdir, bu, heç bir halda mübahisə predmeti ola bilməz.**

Ancaq millətin başının salamatlığı ondan da böyük nemətdir - bunu da şüurlu vətəndaşların hamısı bilir.

Allah eləməsin, ölkəmiz nə vaxtsa, bunlardan birini seçmək variantları qarşısında qalsın. Bu, böyük faciə demək olar.

Bu faciəvi durumdan çıxmaq üçün, təbii ki, ağıllı millətlər əksəriyyət etibarilə ikinci variantı seçərlər. Çünki millətin başı salamat olmayandan sonra dövlətin müstəqil və ya müstəmləkə olmasının heç bir önəmi yoxdur.

O şeirlərdə və mahnılarda səslənən fikirdir: "Qalx ayağa, ya tamam yan, ya azad ol, Azərbaycan". Bu, emosional fikirdir, amma siyasi baxımdan rasional deyil.

İndiki nəslin missiyası var edilmiş dövləti qorumaq, milləti yeni və sağlam nəsillərin estafeti ilə gələcəyə daşımaqdır.

Yoxsa tarixin zibilliyi sonuncu nəfərinə qədər qırılıb-çatılmış, yaxud da başqa, böyük xalqların içində assimlyasiya olunmuş millətlərlə doludur. Bir zaman onların dövləti, güclü orduları olub, amma bir gün güclü düşmənlərlə qarşılaşıblar, nə onları özlərinə tabe etdiriblər, nə də tabe olublar. Nəticədə bu gün yoxdurlar və heç kəs onlar üçün göz yaşı tökmür.

Belə millətlər yalnız hansısa dövlətin qədim tarixinin bir-iki səhifəsində qalır. Məsələn, vaxtilə gənc Temuçinin arvadını qaçırıb zorlayan merkitlər varmış, sonradan güclənib Çingiz xan olan hökmdar tərəfindən genosidə məruz qalıblar. Bu gün o hadisə kimi ağrıdır?

Bir sözlə, genosidə məruz qalan, yaxud da əvvəlcə gücünü, sonra dövlətçiliyini, lap axırda isə hər şeyini itirən millətlər çox olub.

Bir də dünyada ağıllı kiçik xalqlar var. Məsələn, Baltikyanı ölkələr - Litva, Latviya, Estoniya. 1940-cı ildə SSRİ tərəfindən işğal olunan bu ölkələr "qalx ayağa, ya azad ol, ya tamam yan" taktikası seçmədilər, daxili narazılıqları ilə Moskvaya tabe oldular, sovet dönəmində bildikləri kimi, hamıdan firavan, hamıdan yaxşı yaşadılar, Kremlə yarınmadılar, canfəşanlıq etmədilər, zamanı gələndə, ilk fürsətdə SSRİ-dən birinci qopan onlar oldu, sonradan Moskvanın təsis etdiyi MDB, KTMT, Avrasiya İttifaqı kimi qurumlara da qoşulmadılar, hazırda isə Avropanın orta səviyyəli firavan ölkələrindəndirlər.

Amma SSRİ-nin tərkibindəki on altıncı müttəfiq respublikanın - Karel-Fin SSR-in aqibəti başqa cür oldu. Bu respublikanın əhalisinin əksər hissəsi II dünya müharibəsi zamanı Finlandiyanın tərəfində SSRİ-yə qarşı vuruşmuşdu. Müharibədən sonra bu respublikanı yavaş-yavaş balacalaşdırdılar, sonra isə ləğv edərək, RSFSR-in tərkibində muxtariyyət verdilər. Hazırda keçmiş SSRİ-yə daxil olan 15 respublikanın 15-i də müstəqil dövlətdir, Karel-Fin respublikası isə sadəcə Kareliya olaraq Rusiyanın tərkibində muxtar respublikadır.

Çeçenistanın başına gələnlərə baxaq. 22-25 il əvvəl bu muxtar respublika güclüydü, on minlərlə döyüşkən və əzmkar sakini vardı. Çeçen xalqı intibah dönəmini yaşayırdı, öz ərazisinə, sərvətlərinə sahib çıxmaq əzmindəydi. Ancaq çeçenlər məqsədlərinə tədricən və siyasətlə yox, tezliklə və silahla çatmaq istədilər. Nəticədə xalqın ən döyüşkən, cəsur oğulları qırıldı, millət qətliama məruz qaldı, minlərlə dinc insan xarici ölkələrə səpələndi.

İndi ortaya bir KTMT söhbəti çıxıb, Azərbaycanın bu təşkilata qoşulması məsələsinin müzakirəsinə dair təklif irəli sürülüb. Politoloqlar, hərəkatçılar, jurnalistlər fikir bildirir.

Söz yox ki, bu ideya boş yerdən çıxmayıb, arxasında müəyyən məqsəd, niyyət də var.

Ancaq bu, hələlik o dərəcədə də ciddi səciyyə daşımır. İndilikdə belə görünür ki, Azərbaycan bu xüsusda (yazının əvvəlində yazdığımız) seçim qarşısında deyil. Ona görə də bu təşəbbüsü eninə-uzununa müzakirə etmək olar. Fəqət biz nə vaxtsa ciddi seçim qarşısında qalsaq və iki yoldan birini seçməyə məcbur olsaq, o zaman bu məsələyə dair ciddi qərar verərik.

Böyük ehtimalla bu, elə söhbət olaraq da qalacaq. Düzdür, Rusiya keçmiş SSRİ-ni (daha dəqiqi, Rusiyanın 1991-ci ilə qədərki ərazisini) bu və ya digər ad altında bərpa etməyə usanmaz cəhdlər göstərir, ancaq bu layihəyə qarşı gözlə görünən və görünməyən şiddətdə müqavimət var.

Birmənalıdır: SSRİ bərpa olunmayacaq. Rusiya da köhnə ərazisini bərpa edə bilməyəcək. KTMT-yə qoşulmaq və qoşulmamağın da elə bir fərqi olmayacaq.

**İndilikdə əsas məsələ isə merkitlər kimi yox, estonlar, latışlar kimi soyuqqanlı olmaqdır.**



# Paşinyanı maliyyələşdirə bilərik

**Zamin HACI**
zaminhaci@gmail.com

*"Anca kim, səy eylədim nazik cəmalın görməyə,*
*Zərrəcə yumşalmadın, ey könlü zindan erməni".*
**(Nəsimi)**

**Ermənistanın təzə prezidenti Paşinyan köhnə prezidenti Köçəryana qarşı cinayət işi açıbdır. Hətta bir müddət onu türməyə də basmışdı. İndi Köçəryan yandığından bilmir nə desin, Paşinyanı... Azərbaycanın maliyyələşdirdiyini söyləyir. Açığı, biz Qafqazda bu tip bəyanatlara öyrəşmişik, bilirik ki, orda kimin kimdən xoşu gəlməsə "azərbaycanpərəst" adlandırır. Güzgüvari əksi də bizdədir - bizdə axmaq adama erməni demək söyüş kimi bir şeydir. O cümlədən, hökumət müxalifəti həmişə ermənipərəst adlandırmaqdan zövq almışdır. Ancaq ilk dəfədir bu cür ittihamlar eks dövlət başçısı səviyyəsində və dövlət başçısına yönələrək səslənir.**

Təbii, Köçəryanı danışdıranın, necə deyərlər dilinə dilçək verənin Moskvada oturduğu məlum məsələdir. Ruslar onların orbitindən az-maz da olsa sivişməyə can atan Paşinyanın ipini yığmaq üçün hələ nələr qarışdıracaqlar, hansı susmuş ağızları açacaqlar - şeytan bilir (Rusiyanın əməllərində çoxdan bəri allahlıq bir şey qalmayıbdır). Hətta lazım gəlsə, ən son anda təzə bir "nairiunanyan" tapıb əlinə avtomat verəcəklər, Ermənistanda növbəti siyasi qırğın törədəcəklər. Ancaq Paşinyanın ətrafında cərəyan edənlər, ermənilərin tez-tez Azərbaycanla bağlı çıxışlar eləməsi maraq doğurur.

Misal üçün, Köçəryan 2008-ci ildə Yerevanda mitinq edən camaatı güllələməsini Surət Hüseynovun Gəncə qiyamı ilə müqayisə etmişdir. Deyir azərbaycanlılar ordunun siyasətə qarışmasına imkan verdilər, o üzdən rayonlarını itirdilər. Məncə düşmən də olsa düzgün analiz edir. Necə deyərlər, dəlidən doğru xəbər. Çünki, buna istinadən "mən ordu siyasətə qarışmasın deyə ona əmr elədim camaatı qırsın" məntiqi Köçəryanın nə qədər debil adam olmasını da göstərir və adamı yandırır ki, gör biz kimlərə uduzmuşuq. Paşinyan hökumətini bizim maliyyələşdirməyimizə gələndə, bu daha dərin söhbətdir.

4-5 il qabaq bizim internet saytlarından birində Ermənistan əks-kəşfiyyatının rəisi Karapetyan haqda yazı dərc edilmişdi. Anonim müəllif bizim xüsusi xidmətlərə istinadən yazırdı ki, Azərbaycan kəşfiyyatçıları Karapetyanın bütün iş qrafikini, həyatını əzbər bilirlər, arvad-uşağı, məşuqəsi kimdir, cibində nə qədər pulu olur, hətta soyuducusunda hansı kolbasanı saxladığına qədər bizə məlumdur! Yazının heç bir yerində smaylik işarəsi qoyulmamışdı, zarafatla yazıldığı da qeyd olunmurdu. İndi mən Köçəryanın açıqlamasından sonra düşünürəm ki, bəlkə o yazı da tamamilə doğru imiş? Nə biləsən... Bəlkə də Paşinyan doğrudan da bizim kəşfiyyatın yetişdirdiyi, ora yerləşdirdiyi adamdır, pillə-pillə vəzifələrdə qaldırmağa vaxtımız az olduğu üçün birbaşa inqilab yapdıq, hakimiyyətə gətirdik, indi də bizim istədiklərimizi edir - Köçəryan, Sərkisyan, nə bilm hansı ...yan kimi savaş cinayətkarlarını cəzalandırmaqdadır. Qorbaçov haqda indiyə qədər də camaat danışır ki, o, Amerikanın adamı olubdur, hakimiyyətə gətiriblər SSRİ-ni içəridən dağıtsın. Məhşur tamaşada deyilən kimi: "Ştirlits hamının başını xarab edibdir".

Mövzudan azca uzaqlaşmaq olmasın, bir ara bizim müxalifətdə gülməli adamlar olurdu, hakimiyyətin tərəfinə keçəndə deyirdilər gedirik hakimiyyəti içəridən dağıtmağa. Ancaq az keçməmiş ya hakimiyyət özü bunu dağıdırdı, ya da keçmiş cəbhədaşları piranya balıqlarının əlinə düşmüş qunduz balası kimi bunu tikə-parça edirdilər, uzun müddət müxalifət bataqlığının üzərində qan ləkələri yayılmış qalırdı. Eh, nə əcaib günlər gördük biz. O vaxt bəyə dedim, a bəy... Nəsə, mövzumuz ayrıdır.

Söhbəti ciddiyə alsaq, əslində Azərbaycan Ermənistanı maliyyələşdirəcək gücdədir, tarixən də ermənilər bizim torpaqlarda bəy kimi yaşayıblar. Bakının mərkəzində kef ediblər, neft milyonçusu olublar, hətta Azərbaycana rəhbərlik ediblər (1926-1929 arası, Levon Mirzoyan). Ruslar aranı qatıb düşmənçilik yaratmasa yenə buralarda xoşbəxt olmuşdular. Müharibə olmasa Bakı-Ceyhan neft xətti üçün ən qısa yol elə Ermənistandan keçirdi. O cümlədən, Ermənistan indiki təcrid vəziyyətində yox, nəqliyyat yollarının, böyük qlobal infrastruktur projelərinin içində idi. Ancaq onlar Qafqazın palıd pöhrəsi olmağı deyil, Rus imperiyasının bölgəyə çaldığı paz rolunu üstün biliblər. Qarabağı tutublar, əvəzində bütün Qafqazı itiriblər, çünki Qafqazın açarı Azərbaycandadır.

**Ermənilər ürəklərində, gizli də olsa bunu başa düşürlər və hərdən bir-birini "Azərbaycandan maliyyələşməkdə" suçlayarkən həmin gizli hissləri büruzə verdiklərini anlamırlar. Qafqazda bu qədər pulu qoyub, okeanın o tayında dilənçilik etmək axmaqlıqdır. Sözgəlişi, biz hərdən ermənilərin pul verənlərinə də pul veririk.**

---



# "Ermənistan Azərbaycan və Türkiyə ilə təkbətək qala bilər" - şimaldan hədə

## Rusiyadan yeni erməni hökumətinə qarşı təhdidlər artır; ABŞ-ın ardınca İrana səfərə gedəcək Nikol Paşinyanın "iki stul"da oturmaq siyasəti iflasa doğru gedir...

**Ermənistanın baş naziri Nikol Paşinyan hakimiyyətdə 100-cü gününü də yola saldı. Əksər siyasi təhlilçilərə görə, onun üçün daha ağır dönəm əslində hələ bundan sonra başlayır. Xüsusən işğalçı ölkənin xarici siyasətlə bağlı oriyentasiyası daha qeyri-müəyyən qala bilməz və onu dəqiqləşdirməyin zamanı çatıb. Ermənistanın qərbyönlü baş naziri Paşinyan isə belə görünür ki, hələ bir müddət də "iki stul"da oturmaq siyasətini davam etdirmək istəyir.**

Lakin bu siyasət İrəvana yaxşı heç nə vəd eləmir. Ən azı ona görə ki, nə Rusiya, nə də Qərb (ABŞ və Avropa Birliyi) belə durumda ona ciddi maliyyə-siyasi, hətta təhlükəsizlik dəstəyi verməyə can atmayacaq. Necə ki, atmır. Deməli, seçim anı yaxınlaşır. Bu anı hamıdan çox isə Rusiya gözləyir. Bəlli səbəblərdən.

*****

"Hazırda Ermənistan-Rusiya əlaqələri, yumşaq desək, ən qeyri-sabit dövrünü yaşayır. KTMT baş katibi ilə bağlı əhvalat bu əlaqələr üçün özünəməxsus lakmus kağız rolunu oynadı. Nədən ki, həmin hadisə Yuri Xaçaturovdan (KTMT baş katibi - red.) daha çox, təşkilatı gözdən saldı. Bu isə artıq qəsdən törədilmiş təxribat qoxusu verir".

"Yeni Müsavat"ın məlumatına görə, bu barədə Rusiya portalı rosbalt.ru-da dünən getmiş məqalədə deyilir. Məqalədə Ermənistanın indiki rəhbərliyinin ünvanına kifayət qədər sərt tənqidlər, hətta hədələr yer alıb.

"Aydındır ki, Ermənistan hökumətinin hansısa cinayətdə ittiham olunan adama qarşı istintaq aparmağa hüququ var. Ancaq onlar bunu daha "səliqəli" şəkildə edə bilərdilər. Yəni öncə baş katibi geri çağırar, ardınca isə onunla bağlı məhkəmə araşdırmasına başlaya bilərdilər. Ancaq Paşinyan qalmaqallı yol seçdi: baş katibi İrəvana çağırdı və dəmir qəfəslik arxasına göndərdi, ardınca onu Moskvaya buraxdı - ancaq artıq "alçaldılmış və təhqir olunmuş" baş katibi. Bütün bunlar isə KTMT-nin imicinə yaxşı planlaşdırılmış zərbəyə oxşayır" - məqalədə qeyd olunur.

**Nəşrin əminliyinə görə, erməni baş nazir öz hərəkəti ilə təşkilatı son dərəcə biabırçı və ikibaşlı vəziyyətə qoyub:** "Eyni zamanda bununla o, Ermənistana zərər yetirib. Çünki Rusiya və KTMT öz geosiyasi qeyri-dostlarının paxıllığına birtəhər dözərsə, Ermənistan hərbi cəhətdən dörd bir tərəfdən müdafiəsiz duruma düşə bilər - ən əsası da Azərbaycan və Türkiyə sarıdan".

Analitik yazıda ardınca növbəti xatırlatma-xəbərdarlıq edir: "Bunu da qeyd edək ki, KTMT ölkələri onsuz da İrəvanın Bakı ilə münasibətləri və Qarabağ məsələsində Ermənistana təəssübkeşlik eləmir. Onların hamısı Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir. İki düşmən dövlət arasındakı qovğaya baş qoşmaq istəmir. Əlbəttə ki, KTMT, əsasən də Rusiya vəziyyətin geniş miqyaslı hərbi toqquşmaya çatması üçün zəruri tədbirlər görməli olacaq. Ancaq onlar öz silahlı qüvvələri ilə erməniləri xilas etməyə heç kim getməyəcək... Əgər Ermənistan özünə "bəraət qazandırmağı" bacarmasa, öz "səhvini" düzəltməyə çalışmasa, əgər KTMT-nin konstruksiyasını xarici sifariş əsasında altdan-altdan oymağı davam etdirməsə, təşkilat Ermənistanın öz fiziki varlığını saxlaması üçün heç barmağını da tərpətməyəcək. Rusiya isə yeni erməni rəhbərliyinin "loyallığı" olmadan da öz cənub sərhədlərini qorumağın üsulunu tapacaq. Bu, əlbəttə ki, çətin olacaq. Ancaq qeyri-mümkün deyil".

*****

Rusiya nəşrindəki bu məqalədən də aydın görünür ki, Moskvada Paşinyan hökumətinə qarşı qəzəb ciddidir - rəsmi səviyyədə açıq büruzə verilməsə də. Şübhə yox ki, Ermənistan hökuməti də artıq vəziyyətin fərqindədir və əndişəlidir. Baş nazir Nikol Pşainaynın hakimiyyətinin 100 günlüyü ərəfəsində prezident Vladimir Putinə telefon açması bu əndişənin əlaməti sayıla bilər. Doğrudur, telefon danışığı haqda müfəssəl bilgi verilmir. Ancaq təşəbbüsün İrəvan tərəfindən göstərilməsi özlüyündə az şey demir. İstisna deyil ki, Putin son danışıq zamanı bir daha Putini "dişinə" vurub.

Gələn ay isə Nikol Paşinyan ABŞ-a ilk səfərinə hazırlaşır. Erməni qaynaqlarının yazdığına görə, səfərdə əsas hədəf BMT Baş Məclisinin növbəti sessiyasında iştirakdan daha çox ABŞ prezidenti Donald Trampla heç olmasa 20 dəqiqəlik görüşə nail olmaqdır. Şübhə yox ki, bu, ona daxildəki və xaricdəki qeyri-dostlara "yumşaq güc" nümayişi və maliyyə qaynağı tapmaq baxımından çox lazımdır. Artıq Amerikadakı erməni lobbisi görüşün alınması üçün hərəkətə keçib, 50 ermənipərəst konqresmenin Trampa müraciət ünvanlanmasına nail olub.

**Amerika səfərindən az sonra isə erməni baş nazir ABŞ-ın sərt sanksiyalar tətbiq etdiyi və düşmən elan elədiyi İrana səfərə getməlidir. Beləcə, Paşinyan "iki stul" siyasətini davam etdirir - həm özünü Qərbin, həm də Qərbin düşmənlərinin (İran, Rusiya) dostu kimi göstərməyə çalışır. Eyni vaxtda "iki stul"da oturmaq istəyən isə hər ikisindən olar. Yəni sürprizlər şimaldan da, okeanın o tayından da gələ bilər. rosbalt.ru-dakı məqalənin qayəsində də elə bu mesaj-ismarış durur...**

❑ **"Yeni Müsavat"ın analitik xidməti**



# AXC iqtidarının baş prokuroru yenə Surət Hüseynov qiyamından danışdı

## İxtiyar Şirin: "Köçəryanın dedikləri doğrudur..."

**Ermənistanın sabiq prezidenti Robert Köçəryanın azad olunduğu Apelyasiya Məhkəməsində Azərbaycan ordusunun keçmiş korpus komandiri Surət Hüseynovun 1993-cü ildə AXC iqtidarına qarşı qaldırdığı qiyama toxunması gündəmdən düşmür. Qaniçən erməni lideri ittiham olunduğu 2008-ci il martın 1-də ölkəsində baş verən hadisə ilə bağlı ifadə verərkən bu barədə danışıb.**

O, 10 il öncəki hadisələr zamanı silahlı qüvvələrin siyasətə müdaxiləsinin olduğunu və bunu aradan qaldırmaq üçün elə bir əmir verdiyini bildirib. Bu zaman Köçəryan Ermənistandakı 2008-ci il hadisələrini 1993-cü ildə Azərbaycanda yaşananlarla müqayisə edərək özünə bu cür haqq qazandırmağa çalışıb: "Bizim əlimizdə təcrübə var, bizim təcrübə yox, düşmənimizin təcrübəsi. Bu hansı təcrübədir? Azərbaycanda 90-cı illərin əvvəllərində qiyam qaldırmış hansısa hərbi xadim-Surət Hüseynov var idi, hansı ki silahlı qüvvələrdə müəyyən avtoritetə malik idi və bundan istifadə edərək yerli qiyamçılara qoşuldu, ordunu hakim rejimə qarşı çevirdi. Qoşun Gəncədən Bakıya yollandı. Köçəryan dedi ki, biz bunun necə baş verdiyini görmüşük. Nəticədə Azərbaycan bir qiyamçı hərbçinin hərəkətləri üzündən yüzlərlə itki verdi. Hakimiyyət hərbi qiyamı yatıra bildi, amma bu vaxt ərzində Azərbaycan üç rayon itirdi. İndi Robert Köçəryan dedi ki, belə vəziyyəti 2008-ci ildə özünə rəva görə bilməzdi. Çıxışın bu hissəsi 1 mart hadisələrinə aid deyildi, fevralın 23-nə və 0038 saylı məxfi əmrə aid idi".

Köçəryanın müqayisəsini qüsurlu sayanlar kifayət qədər çoxdur. Amma bununla belə, AXC hakimiyyətinin S.Hüseynovun qiyamı qarşısında qətiyyətsiz mövqe sərgiləməsi bir daha gündəmə gəlib.

**Əbülfəz Elçibəy hakimiyyətində baş prokuror işləmiş İxtiyar Şirin** "Yeni Müsavat"a açıqlamasında Ermənistandakı 2008-ci il hadisələrinin nədən baş verdiyi barədə kifayət qədər məlumatlarının olmadığını bildirdi: "1993-cü il qiyamında və bunun nəticəsində rayonların təhvil verilməsində Surət Hüseynovla yanaşı o dövrdəki siyasi müxalifətin də böyük rolu var. O zamankı siyasi müxalifət, yəni hakimiyyətə gəlmək istəyən qüvvələr həmin qiyamçı qüvvələrlə birləşib torpaqlarımızın ermənilər tərəfindən işğalına səbəb oldular. Bunu hər kəs bilir. Köçəryan əslində bunu demək istəyib, yəni biz buna yol verə bilməzdik. Təəssüflər olsun ki, o qüvvələr Azərbaycanı viran gününə qoydular. O zaman bizə qarşı demək olar bütün qüvvələr birləşmişdi. Amma 2008-ci ildə Ermənistanda eyni vəziyyət yox idi. Yalnız ortada Levon Ter-Petrosyan var idi. Başqa qüvvələrin heç biri onlarla birlikdə deyildi. Elçibəy hakimiyyəti həm qiyamçı qüvvələr, həm də onlarla birlikdə olan siyasi müxalifət tərəfindən təklənmişdi. Hakimiyyətə gəlmək üçün ölkəni dağıtmaq, vətəndaş müharibəsi yaratmaq və torpaqları düşmən vermək niyyətləri var idi və buna da nail oldular. Qiyamçılarla danışıqların aparılması üçün komissiyanın göndərilməsi ilə bağlı prosesdə olmamışam. Yalnız onu deyə bilərəm ki, Elçibəyi devirib hakimiyyətə gəlmək istəyən qüvvələr Azərbaycanı viran edib, torpaqlarımızı ermənilərə verməyi göz altına almışdılar. Bu baxımdan Köçəryanın bu barədə dedikləri doğrudur. Bunu bilməyən yoxdur".

**AXC İcraiyyə Komitəsinin sədri olmuş, Milli Dirçəliş Hərəkatı Partiyasının sədri, deputat Fərəc Quliyev** Köçəryanın dediklərini daim dilə gətirdiklərini qeyd etdi: "Daim bildirmişik ki, ölkənin daxilində müəyyən gərginliklər yarandığı zaman düşmən dövlətlər bundan dərhal istifadə edə bilərlər. Problemlərimizi elə formada həll etməliyik ki, düşmənlər bundan yararlanmasınlar. Qiyamdan əvvəlki 9 fevral bəyanatı ilə biz Surət Hüseynovun etdiklərinə qiymət vermişəm. Sadəcə indi onlar təsdiq edirlər ki, biz hadisələrdən istifadə etdik. Rusiyadan tapşırıq almaq məsələsi ortada idi. Düşünürəm ki, həm Ermənistanın tapşırıq almaq məsələsi, həm də Surət Hüseynov qiyamı birbaşa Rusiyadan qaynaqlanmışdı. Biz o zaman qiyamçılarla döyüşəndə 30-a qədər muzdlu tutmuşduq. Onlar rus ordusunun zabitləri idilər. Çox təəssüflər olsun ki, biz onları Bakıya təhvil verəndən sonra hələ də mənə məlum olmayan qüvvələr tərəfindən azad edilmişdilər. O zamankı hadisələrdə açıq-aşkar Rusiyanın iştirakı var idi. Köçəryanın ifadələrində əslində bunlar öz təsdiqini tapır. O zaman mövqeyimi açıq şəkildə ortaya qoymuşam və qətiyyətli mövqe sərgiləməyi vacib bilmişəm. Hər kəs məni mövqeyimə görə yaxşı tanıyır. Rəhmətlik Əbülfəz Elçibəy müsahibələrinin birində-"Meydan 4 il, 4 ay" kitabında da göstərilib- o bildirib ki, Fərəc Quliyevin təklifləri ilə biz davransaydıq, vəziyyət fərqli olardı, hakimiyyəti qoruyub saxlaya bilərdik. O zaman sərt davranışın tərəfdarı idim, bu gün də eyni düşüncədəyəm. Azərbaycan daxilində kimin hakimiyyətdə olmasından asılı olmayaraq dövlətə qarşı təhlükələr varsa, dərhal qarşısı sərt şəkildə alınmalıdır. Çünki dövlət maraqlarından üstün heç nə yoxdur. 3 rayon deyilsə də, çevrilişdən sonra çoxsaylı rayonlarımız işğal altına düşdü. Bunun fəsadlarını bu gün də yaşayırıq. Çox yaxın zamanda Gəncədə baş verən hadisələrə qiymət verərkən bildirdim ki, bu məsələnin kökünü kəsmək lazımdır. Hesab edirəm ki, o zaman siyasətimizdə müəyyən qədər yumşaq hallar oldu. Sərt davransaydıq belə bir faktı deyim ki, Rusiya və İran o zaman çevrilişə dəstək verirdi. Hətta İran səfiri Gəncəyə gedib çevrilişçilərə Quran bağışlamışdı. Başqa dəstəklərdən də xəbərimiz var idi. Köçəryanın dediklərindən və bizim indiyə qədər dediklərimizdən çox şeylər öz təsdiqini tapır. 1993-cü il Azərbaycanda və 2008-ci il Ermənistanda baş verən hadisələri müqayisə etmək olmaz. Unutmaq olmaz ki, o zaman Azərbaycan Rusiyaya qarşı dövlət idi. Özüm şəxsən Kəlbəcərdə döyüşlərdə olmuşam. Orada "Vişka" deyilən yer var idi və orada üzərimizə gələn ruslar idi. Şəxsən mən onlarla döyüşmüşəm. Meyitlərdən döyüşənlərin ruslar olduğu açıq görünürdü. Belə faktlar onu sübut edir ki, torpaqlarımızı ruslar işğal ediblər. Ona görə də, Rusiyanın əyaləti olan yerdəki çevriliş cəhdi ilə Azərbaycandakı hadisələri müqayisə etmək qüsurludur. Hətta deyərdim ki, biz başqa tədbirlər görsəydik, burada vəziyyət daha fərqli olardı. Elçibəyin əsas fikirləri o idi ki, hakimiyyətdə kim olursa olsun, bircə vətəndaş müharibəsi olmasın. Bu müharibənin də olmaması üçün tərəflərdən biri olan Əbülfəz Elçibəy geriyə çəkildi və ölkənin bir yerindən başqa yerinə getdi".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

# Ermənilər Azərbaycan puluna görə bir-birini qırır



## Köçəryanın "Paşinyana Azərbaycandan pullar gəlib" sözləri nədən xəbər verir?

**Ermənistanın eks-prezidenti, ötən həftə sonu barəsində çıxarılmış həbs-qətimkan tədbiri dəyişdirilən Robert Köçəryan ona yaxın "Yerkir media" kanalına müsahibə verib və siyasətə qayıtdığını elan edib. Virtualaz.org xəbər verir ki, müsahibədə Köçəryan istintaqın ona qarşı irəli sürdüyü ittihamları "saxta" adlandırıb, Nikol Paşinyanın hökumətini siyasi təqiblərdə günahlandırıb.**

Robert Köçəryan bildirib ki, ona qarşı təqiblərin səbəbi həm də siyasətə qayıtmasını əngəlləmək üçündür. "Hesab edin ki, mən siyasətə qayıtdım. Nədir bəyəm, olmaz? Bu ölkədə alternativ mövqe qadağan edilib?"-o bildirib.

Köçəryanın sözlərinə görə, Ermənistanın ətrafında baş verən proseslər və yeni hökumətin bu proseslərə reaksiya verməsi onun siyasətə qayıtmasının zəruriliyini göstərir.

"Mən izah edə bilərəm siyasətə niyə qayıtmışam. Bunun əsasən iki qlobal səbəbi var. Birincisi dünyada yaranmış geosiyasi vəziyyətdir. Rusiya-Amerika münasibətləri ən aşağı nöqtədədir. Yeni sanksiyalar tətbiq olunur, yeni məhdudlaşdırıcı tədbirlər gözlənilir. O tərəfdən də İran-ABŞ münasibətləri"-Köçəryan deyib. Ermənistanın eks-prezidentinin bildirdiyinə görə ikinci səbəb Türkiyənin davranışlarıdır. Belə ki, Köçəryanın fikrincə 10 il qabaq tamam fərqli Türkiyə var idi. O vaxt Ankara Avropa İttifaqına can atırdı, bu da ölkənin aqressivliyini, qonşuların işlərinə qarışmaq səylərini məhdudlaşdırırdı. "Bu gün isə bu yoxdur, Türkiyə bu öhdəliklərdən çıxıb. Əgər biz bütün bu məsələləri əlaqələndirməyə çalışsaq görərik ki, bu situasiyada Ermənistanda bütün bunları başa düşməyən təcrübəsiz hökumət var. Yeni hökumət ordunu diskreditə edir, başa düşmür ki, güclü ordu təhlükəsizliyin qarantıdır. Axı bu hökumətdə təcrübədə haradan olsun, bir halda ki, onun üzvlərinin çoxu əvvəllər ancaq hansısa ictimai təşkilatlarda işləyiblər. Bu strukturların çoxunu Soros maliyyələşdirib. Bəlkə həmin pullar Azərbaycandan daxil olub, bəlkə Türkiyədən, mən hardan bilim?"-Köçəryan sual edib.

Ümumiyyətlə, sonuncu arqument - Paşinyanın Azərbaycan tərəfindən maliyyələşməsi ehtimalı ciddi müzakirəyə səbəb olacaq məqamdır.

**Politoloq Elxan Şahinoğlu** "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, ümumiyyətlə, bu, siyasi və hiyləgər açıqlamadır. Onun sözlərinə görə, açıqlamanın əsas məqsədi cəmiyyəti Paşinyandan şübhələndirməkdir: "Robert Köçəryan ən mənfi "titullara" layiqdir, ancaq o hər nədirsə təhlükəli siyasi fiqurdur. O sıradan biri deyil, Azərbaycan torpaqlarının işğalını və etnik təmizləməni təşkil edənlərdən biridir, SSRİ və sonra Rusiyanın Xankəndidəki hərbi qüvvələrini öz tərəfinə çəkən şəxsdir, bunu bacarmaq isə xüsusi yaltaqlıq və inandırıclıq qabiliyyəti tələb edir. Mən 1990-cı illərin sonunda həm Robert Köçəryana, həm də Serj Sərkisyana müxtəlif suallar vermişəm və aldığım cavablardan gəldiyim qənaət budur ki, Köçəryan siyasi fiqur olaraq Sərkisyanı üstələyir. Elə ona görə də baş nazir Nikol Paşinyanı aşırtmaq istəyən "Qarabağ klanı"na və Ermənistandakı ruspərəst qüvvələrə Köçəryan başçılıq edəcək. İstisna etmirəm ki, Köçəryan keçmiş müttəfiqi Daşnaksütyun Partiyası ilə artıq danışıqlara başlayıb. Məhz bu partiyanın deputatları prokurorluğa müraciət etmişdilər ki, Köçəryan həbsdən azad edilsin. Həmin deputatların parlamentdə Paşinyanın əleyhinə səs verməleri yetərlidir ki, indiki baş nazir hakimiyyətini itirsin".

**Müsahibimiz eyni zamanda Köçəryanın həbsdən sonrakı müsahibəsində fikirlərin həqiqətdən uzaq olmadığını bildirdi:** "Köçəryanın həbsdən sonrakı müsahibəsindəki fikirlər həqiqətdən uzaq deyil. Deyir ki, Azərbaycanda Surət Hüseynov qiyam qaldırmasaydı biz Azərbaycanın torpaqlarını işğal edə bilməzdik. Yanlışmı deyir? Deyir ki, Paşinyan siyasətdə təcrübəsizdir, ordunun nəbzini duya bilmir, bölgədəki geosiyasi proseslərdən başı çıxmır və bu da Ermənistanın kövrək balaslaşdırılmış siyasətinin məhvinə gətirib çıxara bilər. Ermənistanın eks-prezidenti Rusiya-Amerika münasibətlərindəki gərginliyi, İrana qarşı artan sanksiyaları, Türkiyə-Azərbaycan müttəfiqliyinin güclənməsini, hətta Gürcüstanın NATO üzvlüyünə yaxınlaşmasını Ermənistan üçün ciddi təhdidlər kimi dəyərləndirir. Köçəryan bu fikirlərində də haqsız deyil. Beləliklə, Paşinyan yaxın günlərdən başlayaraq enerjisinin bəlkə də əsas hissəsini Köçəryanın simasında yeni formalaşacaq müxalifətlə mübarizəyə sərf etməli olacaq".

❑ **Sevinc TELMANQIZI,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 176 (7065) 18 avqust 2018

# 3 sabiqin həyatı - Əli İnsanov, Fərhad Əliyev, Rəsul Quliyev...

## Biri həbsdə, biri biznesdə, o biri mühacirətdə...

**İllərdir ki, adları gündəmdən düşməyən sabiq məmurlar var. Onların sırasında ilk üçlükdə adları çəkilənlər Əli İnsanov, Fərhad Əliyev və Rəsul Quliyevdir.**

Əli İnsanov vaxtilə hazırkı hakim partiyanın əsas fiqurlarından biri hesab olunurdu. Digər iki sabiqdən fərqli olaraq bu gün Azərbaycanda qalan, daha doğrusu qalmaq məcburiyyətində olan da Əli İnsanovdur. 2005-ci ilin oktyabrında onu və Fərhad Əliyevi dövlət çevrilişinə cəhd ittihamı ilə həbs etmişdilər. Sonradan Fərhad Əliyev əfv olunsa da, Əli İnsanov bu günə qədər həbsdədir.

Həbsinə qədər səhiyyə naziri postunu tutan Əli İnsanovun bu vəzifəyə yolu Azərbaycan Elmi-Tədqiqat Vərəm İnstitutunda həkim-ordinatorluqdan başlamışdı. Əli İnsanov sonralar vəzifə pilləsində tədricən yüksəlmişdi. 1985-ci ildə həmin institutun direktoru olan Ə.İnsanov Heydər Əliyev hakimiyyətə gələndən sonra 1993-cü ildə səhiyyə naziri vəzifəsinə təyin olunmuşdu. 2 il sonra isə Milli Məclisə deputat seçilmişdi. 2001-ci ilin iyulunda Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü də seçildi. 2005-ci ilin oktyabrında hakimiyyəti zorla ələ keçirmə ittihamı ilə həbs edilən Əli İnsanovun bir çox titulları, o cümlədən akademik fəxri adı geri alınıb. Əvvəlcə dövlət çevrilişinə cəhdə hazırlıq ittihamı ilə həbs edilən sabiq nazir, daha sonra iqtisadi cinayətlərdə təqsirli bilindi. 2007-ci ilin aprel ayında İnsanov korrupsiya, vəzifə səlahiyyətlərini aşma ittihamı ilə əmlakı müsadirə olunmaqla 11 il azadlıqdan məhrumetmə cəzasına məhkum edilib. Ə. İnsanov hazırda 13 saylı cəzaçəkmə müəssisəsində cəza çəkir.



Fərhad Əliyev



Rəsul Quliyev



Əli İnsanov

Onunla bərabər həbs edilən sabiq iqtisadi inkişaf naziri Fərhad Əliyevin sorağı ölkə xaricindən gəlir. Onun Türkiyə və Moldovada biznesini idarə etdiyi bildirilir.

Fərhad Əliyev 1997-ci ildə ticarət nazirinin müavini vəzifəsinə irəli çəkilib. Bir qədər sonra isə Azərbaycanın ticarət naziri vəzifəsinə təyin olunub. 1999-2001-ci illərdə isə o, dövlət əmlak naziri vəzifəsində çalışıb. 2001-ci ildə mərhum prezident Heydər Əliyevin qərarı ilə İqtisadiyyat, Ticarət və Dövlət Əmlakı nazirlikləri, Antiinhisar və Sahibkarlığa Yardım Komitəsi, Xarici İnvestisiyalar üzrə Dövlət Agentliyi birləşdirilərək İqtisadi İnkişaf Nazirliyi yaradıldı və Fərhad Əliyev nazir təyin olundu. Fərhad Əliyev bu postda islahatçı nazir imici qazanaraq gələcəkdə ölkənin baş naziri olmağa iddialı şəxslərdən birinə çevrilə bildi. 2005-ci il oktyabrın 19-da parlament seçkiləri ərəfəsində Fərhad Əliyev öz xidməti kabinetində həbs edildi. Fərhad Əliyev dövlət çevrilişinə cəhd ittihamı ilə həbs edilsə də, sonralar ona dövlət əmlakını mənimsəmə ittihamı irəli sürüldü. 2007-ci il oktyabrın 31-də Ağır Cinayətlərə Dair İşlər üzrə Məhkəmədə çıxarılmış hökmə əsasən, sabiq iqtisadi inkişaf naziri Fərhad Əliyev 10 il müddətinə azadlıqdan məhrum edildi və Binədə yerləşən 2 saylı cəzaçəkmə müəssisəsinə göndərildi. 8 il məhkumluq həyatı yaşayandan sonra əfv olundu və bundan sonra ölkədən getməsi xəbərləri yayıldı.

**Azərbaycanın eks-spikeri Rəsul Quliyev uzun illərdir Amerikada mühacir həyatı yaşayır. 1996-cı il sentyabrın 11-də Milli Məclisin sədri postundan istefa verəndən sonra ABŞ-a yollanan Rəsul Quliyev oradan geri qayıtmayıb. Ara-sıra müsahibələr verib Azərbaycana qayıtmaq istəyini dilə gətirən eks-spikerin 22 ildir ki, arzusu reallaşmayıb...**

**❑ E.HÜSEYNOV,**
**"Yeni Müsavat"**

# ABŞ-ın Türkiyə və İrana sanksiyalarının arxasındakı əsas hədəf

## Politoloq: "ABŞ-ın atdığı bu addımlar Çinin dünyada aparıcı rola çıxmasını əngəlləməyə hesablanıb..."

**ABŞ-Türkiyə münasibətlərində baş verənlərin ümumilikdə dünyada gedən qlobal proseslərə təsirsiz ötüşməyəcəyi dəqiqdir. Hazırda dünyada yeni nizamın otuşdurulması prosesi başlayıb. Yaxın Şərqdə və Türkiyədə yaşananlar da bu kontekstdə baş verən geopolitik qarşıdurmalardır.**

Hər bir dövlət yeni geopolitik balansda öz yerini müəyyən etməyə çalışır, ABŞ isə özünün maraqlarına uyğun diktə siyasəti yeridir. Bu baxımdan ABŞ maraqlarına uyğun hərəkət etməyən, öz maraqlarından çıxış edən dövlətlər var və onların hədəf seçilməsi də həmin maraqlara xidmət edir.

Məsələn, ABŞ prezidenti Donald Trampın seçkidə qələbə qazanmasında xüsusi rolu olduğu deyilən Stiven Bannon İsrail mediasına açıqlamasında Çin, İran və Türkiyəni "şeytan üçbucağı" kimi xarakterizə edib. Nə baş verir? Niyə bu üç dövlət ABŞ rəhbərliyinin gözünə "şeytan" kimi görünməyə başlayıb?

Məsələnin diqqətçəkən tərəfi də budur ki, İran və Türkiyə ABŞ sanksiyaları ilə üz-üzə qaldığı bir vaxtda Çinə qarşı konkret addımlar atılmır. Bu ayrı-seçkiliyin səbəbi nədir? Bu və digər suallarla **politoloq Arzu Nağıyevə** müraciət etdik.



Politoloq deyir ki, hazırda Türkiyəyə qarşı proseslərin mahiyyətini anlamaq üçün dünyada gedən qlobal proseslərə diqqət etmək lazımdır: "İndi dünyada yeni nizam qurulur. Sənaye və maliyyə potensialının artım templərinə görə son 30 ildə dünyada lider olan və ikinci iqtisadiyyata malik Çin Xalq Respublikasıdır. Çin dünyada ən iri ixracatçı, kreditor, xammal ehtiyatları istehlakçısı, ən çox qızıl-valyuta ehtiyatlarına malik dövlətdir. Yaxın gələcəkdə dünya ehtiyat valyutasına malik olacaq. Yeri gəlmişkən, artıq BRİCS (Braziliya, Rusiya, Hindistan, Çin və Cənubi Afrika) ölkələri öz aralarında ödənişlər üçün yeni pul vahidindən istifadə ehtimalını müzakirə etməyə başlayıblar. Mümkündür ki, bu valyuta yaxın perspektivdə Çin yuanı olsun. Bundan başqa, Çin ən çox əhalisi və ordusu olan dövlətdir, qlobal proseslərdə rolu getdikcə artmaqdadır. Bu proseslər yeni dünya nizamının formalaşmasına əsaslı təsir göstərir. Dünya nizamının gələcək inkişafı böyük mənada Çindən asılıdır. Ona görə də bu gün Çinlə ABŞ arasında münasibətlər dünya siyasətinin diqqət mərkəzindədir. Çin İranın neft ixracının üçdə birini almaqla iqtisadiyyatını ayaqda saxlayır. Türkiyə ilə də Çinin hərbi, iqtisadi və digər sahələrdə əlaqələri genişlənməkdədir. Bu baxımdan böyük Çinə qarşı addımlar müttəfiqlərinin zəifləldilməsi, sıradan çıxarılması üzərindən iqtisadi dayaqlarının sarsıdılmasına hesablanıb".

Politoloqa görə, hər bir ölkəyə qarşı tətbiq olunan sanksiyaların konkret məqsədləri var: "Məlum məsələdir ki, Türkiyəyə qarşı sanksiyalar heç də keşiş Bronsonla bağlı deyil. Bronsonun işi sanksiyaların tətbiqi üçün sıradan bir bəhanə, vasitədir. Bronsonla Fətullah Güləni dəyişmək kimi bir perspektiv də yoxdur. Türkiyəyə qarşı sanksiyaların kökündə həm də Rusiya ilə Türkiyənin yaxınlaşması dayanır. Türkiyənin İranla da münasibətləri müsbətə doğru inkişaf etməkdədir. ABŞ vaxtilə Çin iqtisadiyyatının dirçəldilməsi üçün addımlar atıb. Ölkə daxilindəki ucuz işçi qüvvəsi və resursların kifayət qədər olması Çin iqtisadiyyatını sürətlə inkişaf etməsinə səbəb olub. Belə görünür ki, ABŞ bundan məmnun deyil, daha çox narahatdır. Dünyada iqtisadi baxımından çox güclü olan 2-ci bir qüdrətli dövlətin formalaşması prosesi gedir. Bunun qarşısını almaq üçün dolayı və birbaşa yollarla addımları müşahidə edirik. Çünki iqtisadiyyat böyüdükcə, qüdrətli iqtisadiyyatdan doğan siyasət də böyüyür. Artan, genişlənən iqtisadiyyatı Çinin həm də hərbi-siyasi baxımdan dünyada hakimi-mütləq rolundan ABŞ-ı sıxışdırmasına imkanlar yaradır. ABŞ-ın hazırda atdığı addımlar Çinin dünya hərbi və siyasi səhnəsində aparıcı rola çıxmasını əngəlləməyə hesablanıb. Buna nə dərəcədə nail olacaqlarını proqnozlaşdırmaq çətindir. Amma proseslərin gedişatı onu deməyə əsas verir ki, ABŞ sanksiyaları ilk mərhələdə bu və ya digər dövlətə qarşı effektiv addımlar kimi görünsə də, uzaq perspektivdə sanksiyalara məruz qalan dövlətlərin güclənməsinə, daha tez bir-biriləri ilə müttəfiqə çevirilmələrinə səbəb olacaq".

Politoloq deyir ki, ABŞ-da da bunun fərqindədirlər ki, sanksiyalara məruz qoyduğu dövlətlər getdikcə daha da sıx birləşirlər. Bu da öz növbəsində ABŞ-ın son nəticədə fikrindən daşınması ilə nəticələnə bilər: "Şimali Koreyanın hədələməsi və ardından Tramp adminstrasiyasının bu dövlətinin rəsmiləri ilə danışıqlar masasına əyləşməsi göz önündədir. Bundan əvvəl İranı hədələyirdilər və günlərin birində özləri də İrana danışıq təklif etdilər. Yaxın gələcəkdə Türkiyə ilə də eyni cür davranış sərgilənəcəyi gözləniləndir".

**❑ E.MƏMMƏDƏLİYEV,**
**"Yeni Müsavat"**



# Kremlin İrəvana Qarabağ sürprizi - Moskvanın səbri tükənir

### “Qəlbi” Qərblə döyünən Paşinyan iqtidarı özünü Rusiyaya sevdirə bilmir - səbəb; **politoloq:** “Ermənistan işğalçılıq siyasətini çox sürdürə bilməyəcək...”

**Ermənistanın inqilab dalğasında hakimiyyətə gəlmiş baş naziri Nikol Paşinyan təzə postda olmasından dünən 100 gün ötdü. Keçən 3 aydan çox müddət işğalçı ölkənin xüsusən də xarici siyasət oriyentasiyana müəyyənlik gətirməsə də, komandasını “Amerika uşaqları”ndan qurmuş Paşinyan hökuməti Qərbə bir sıra reveranslar etdi və etməyə davam edir.**




Yeni iqtidar buna paralel, Kremlin “ayağını” tapdayan, onun qəzəbinə səbəb olan başqa addımlar da atdı. Söhbət öncəliklə daxildə aparılan bəzi qalmaqallı həbslərdən gedir. Ələlxüsus da “Rus NATO-su” kimi tanınan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) erməni baş katibi, Rusiyanın sadiq adamlarından olan general Yuri Xaçaturova qarşı cinayət işinin açılması və onun ev dustaqlığı edilməsi Moskvanın, yumşaq desək, xoşuna gəlmədi.

Doğrudur, az sonra İrəvan Rusiyadan qorxub geri addım atdı. Həmçinin eks-prezident Robert Köçəryanı sərbəst buraxmalı oldu. Lakin görünən odur ki, Rusiya artıq Paşinyan hökumətini tam olaraq, dişinə vurub və daha onun sədaqət andlarına inanmır. Bu da o anlama gəlir ki, Kreml hər an İrəvana sürpriz edə bilər - mənfi anlamda təbii ki. Bunu şimaldan gələn ekspert rəyləri də təsdiqləyir.

*****

“Ermənistan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvü olaraq NATO və ABŞ-la çox sıx əməkdaşlıq edir”. Bu fikri Moskvadakı MDB ölkələri institutunun direktor müavini, politoloq Vladimir Yevseyev deyib (Avropa.info). Onun qənaətincə, Ermənistanın ikili oyunu rəsmi İrəvan üçün çox pis nəticələnə bilər.

“Zamanında Serj Sərkisyan iki stulda oturmağa cəhd etdi. Nikol Paşinyan isə faktiki olaraq Qərblə əməkdaşlığını aktivləşdirib. Ermənistan Avrasiya İqtisadi ittifaqının üzvü olaraq Avropa İttifaqı ilə ciddi əhəmiyyət daşımasa da, hansısa saziş imzalayır”, - deyə o narazılığını ifadə edib.

Politoloqun sözlərinə görə, ABŞ-ın Ermənistandakı səfirliyi Cənubi Qafqazda ən böyük səfirliyi hesab olunur: “ABŞ-ın İrəvandakı səfirliyi ərazisində iki min əsgər yerləşə bilər”. Yevseyev onu da deyib ki, Ermənistan komplementar siyasət çərçivəsində beynəlxalq aləmdə siyasətini dəyişməyə çalışır.

“Serj Sərkisyan dövründə Ermənistanın Rusiyaya yönəlik siyasət vektoru Qərbə meyləndi. Paşinyan isə Qərbin stulunda əyləşmək istəyir. Buna baxmayaraq, Paşinyan Rusiyadan ucuz təbii qaz və güzəştlərlə silah və sair almaq istəyir. Həmçinin, Rusiyadan Ermənistanın müdafiəsini, Türkiyədən qorunmasının təmin olunmasını istəyir. Əgər Ermənistan Qərbin yanında olmaq istəyirsə, onda Dağlıq Qarabağda bizdən deyil, Qərbdən kömək istəsin. Qoy o zaman Qərb Ermənistanı NATO üzvü olan Türkiyədən qorusun” - rus politoloq sonda əlavə edib.

*****

“Yeni Müsavat” xatırladır ki, Vladimir Yevseyev vaxtilə ermənipərəst mövqeyi ilə tanınıb. Rusiya Dövlət Dumasının komitə sədri Konstantin Zatulin, politoloq Stanislav Tarasov da Qarabağ məsələsində qərəzli yanaşma sərgiləyənlər sırasında olublar. Lakin indi həm onlar, həm də digərləri işğalçı ölkəyə, daha doğrusu, onun yeni rəhbərliyinə münasibətdə sərt mövqe sərgiləyir, vaxtaşırı Paşinyan hökumətini hətta hədələyirlər - biz hələ Aleksandr Duqin timsalında Kremlə yaxın politoloqları demirik.

Bu, sözsüz ki, Rusiyanın istər rəsmi, istərsə də qeyri-rəsmi, o sırada ekspert çevrələrində İrəvana münasibətdə ötən üç ayda formalaşan ortaq yanaşmanın təzahürüdür. Bir daha aydın öldür ki, Rusiya Ermənistanın sakitcə öz təsir zonasından uzaqlaşmasına seyrçi qalmayacaq. Bu isə “iki stul”da oturmaq siyasəti aparan, əslində isə “qəlbi” yalnız Qərblə döyünən Paşinyan iqtidarı üçün şimaldan qəfil sürprizlər ola biləcəyi anlamına gəlir.

“Ermənistan yeritdiyi siyasətə görə risklər generatorunu xatırladır”. Musavat.com-un məlumatına görə, bu sözləri axar.az-a açıqlamasında politoloq Tofiq Abbasov deyib. O, Ermənistanın indiki vəziyyətdə regionda işğalçılıq siyasətini çox davam etdirə bilməyəcəyini düşünür.

“Ermənistan getdikcə özü özünü zəiflədir. Bu da onun siyasətinin çox yarıtmaz, qeyri-adekvat olmasından irəli gəlir. Çünki bu ölkə artıq özünü böyük əməkdaşlıq planlarından təcrid edib. İşğalçı dövlət bununla da oyundan kənar vəziyyətdə qalaraq, onsuz da ağır olan durumunu bir qədər də dərinləşdirib”, - deyə politoloq bildirib.

Onun sözlərinə görə, Ermənistanın funksiyası təhlükə, təhdid və risklər istehsal etməkdən ibarətdir: “Ona görə də heç bir normal dövlət belə məmləkətlə münasibət qurmağa cəhd göstərməz. Belə elə bir vəziyyətdə qonşu dövlətlərin Ermənistana xüsusi mübarizə aparmasına ehtiyac yoxdur. Bu gün Azərbaycan, Türkiyə, hətta Rusiya və İranın təkcə elə Ermənistana əl uzatmaması işğalçıya qarşı ən yaxşı mübarizə üsuludur. Bir az obrazlı desək, Ermənistan dənizdə batan bir subyektə bənzəyir və yeritdiyi siyasətə görə risklər generatorunu xatırladır. Azərbaycan və digər qonşu ölkələr isə regional və beynəlxalq imtiyazların generatoru rolunu oynayırlar”.

Politoloq hesab edir ki, İran da artıq Ermənistandan uzaqlaşmağa başlayacaq: “Ermənistanın Qərb meylli siyasəti İrana heç cür sərf etmir. Digər tərəfdən bu siyasətin fonunda Paşinyan və onun ətrafının Rusiyadan uzaqlaşmaqla və rus bazasını Ermənistandan xaric etməklə NATO qüvvələrinin, Qərb dövlətlərinin hərbi siyasi qüvvələrini ölkəyə gətirməsi istisna edilmir. Belə olan halda Tehran bu vəziyyətlə nəinki razılaşmayacaq, həm də buna maneçilik törədəcək, sədlər qoyacaq. Bu baxımdan Türkiyə, İran və Rusiyada da artıq bilirlər ki, Ermənistan bir subyekt kimi özü özünə nəyi ehtiva edir. Buna görə də sözügedən dövlətlər Ermənistanın dağıdıcı potensialını getdikcə minimallaşdıracaqlar. Zənnimcə, bu reallıq fonunda Ermənistanın Azərbaycan, Gürcüstan, Türkiyə və İrana qarşı ərazi iddiaları və ”Böyük Ermənistan" xülyası öz-özünə boğulacaq. Ermənistan işğalçılıq siyasətini davam etdirmək üçün ilk növbədə bir dövlət kimi özünü xilas etməlidir. Bu isə indiki zamanda tamamilə mümkünsüz görünür".

*****

**İşğalçı ölkənin hazırda bir ciddi problemi də Paşinyan iqtidarının yaxınlaşmaq istədiyi ABŞ-ın Rusiya, Türkiyə və İranla eyni vaxtda sanksiya dili ilə danışmağa başlaması, bununla da onları sövq-təbii bir-birinə yaxınlaşdırmasıdır. Bu isə Ermənistana yaxşı heç nə vəd eləmir - o cümlədən də Dağlıq Qarabağ məsələsində. Çünki Ermənistanın yeni rəhbərliyi də Qərbin yanında işğal edilmiş Azərbaycan əraziləri ilə birgə yer almaq istəyir. Amma, necə deyərlər, Amerika uzaqda, Rusiya, Türkiyə, İran və Azərbaycan isə lap yaxında, qonşuluqdadır...**

## Köçəryan Paşinyanı Qarabağ məsələsində qorxaqlıqda suçladı



**Ermənistan KİV-ləri eks-prezident Robert Köçəryanın ötən gün “Yerkir Media” telekanalına verdiyi müsahibənin yeni fraqmentlərini yayıb (virtualaz.org). Belə ki, Köçəryan müsahibədə Qarabağ məsələsindən də danışıb və Ermənistandakı hadisələrin Qarabağa da təsir etdiyini deyib.**

“Aydındır ki, Ermənistandakı hadisələr müəyyən dərəcədə Qarabağa təsir edib. Və bu haqda Bako Saakyan da danışıb. Hesab etmirəm ki, orada proseslər Ermənistandakı ilə eynidir, çünki Qarabağdakı situasiya Ermənistandakı situasiyadan fərqlənir, amma müəyyən oxşarlıq əlbətdə var. Qiymət vermək istəmirəm, çünki son vaxtlar Qarabağda olmamışam. Ola bilsin Bako Saakyanla görüşmək və birinci əldən informasiya almaq lazım gələcək” - Köçəryan bildirib.

Eks-prezident baş nazir Nikol Paşinyanın hakimiyyətə təzə gələndə qarabağlı olmadığı üçün Dağlıq Qarabağın adından danışıqlar aparmaq mandatının olmadığı haqda bəyanatına da toxunub. “Hamı görəcək ki, o, danışıqlara gedəcək, artıq belə bəyanat verib. Mən bunu (Paşinyanın Dağlıq Qarabağın adından danışıqlar aparmamaq barədə dediklərini - red.) təcrübəsizliklə əlaqələndirirəm, görünür onlar təsəvvür etməyiblər ki, danışıqlardan imtina nədir və bunun hansı nəticələri olacaq. Ermənistanın birinci şəxsi yaxasını kənar çəkə deyə bilməz ki, ”mən əllərimi yuyuram". Hətta ən pis danışıqlar da müharibədən yaxşıdır və danışıqlar ümumiyyətlə yoxdusa, o zaman müharibə yeganə yoldur" - o deyib.

**Köçəryan bunu da bildirib ki, Qarabağ məsələsində Paşinyanla məsləhətləşmələr aparmağa və təcrübəsini bölüşməyə hazırdır: “Mən hazıram. Heç vaxt danışıqlardan qaçmamışam. Üzərinə məsuliyyət götürməyi bacarmaq və uğur əldə etməyə çalışmaq lazımdır, dovşan kimi qaçmaq yox”.**




# Türkiyədə “McDonalds”lar bağlana bilər

## AKP-nin 883 bələdiyyə və 39 məclis rəhbərliyinə ABŞ məhsullarının boykotu ilə bağlı məktub göndərib

**Xəbər verdiyimiz kimi, Vaşinqton Ankaraya qarşı sanksiyalar tətbiq edəndən sonra, Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan deyib ki, ölkəsi ABŞ-ın elektron mallarını boykot edəcək. “ABŞ-da iPhone varsa, o biri tərəfdə də Samsung var” deyə, prezident bildirib.**

“Yeni Müsavat” xatırladır ki, Türkiyə ABŞ keşişini həbsxanadan buraxmağa imtina etdikdən sonra, ABŞ ötən həftə Türkiyənin polad və alüminium məhsullarına gömrük rüsumunu ikiqat artırıb. Bu olaylardan sonra Türkiyədə bir çox Amerika şirkətləri və onların istehsal etdiyi məhsulların boykotuna başlanıb.

AKP yerli idarəetmələrdən məsul rəhbər yardımçısı Erol Kaya partiyanın 883 bələdiyyə və 39 məclis rəhbərliyinə məktub göndərib. Məktubda bildirilir ki, xarici valyuta ilə iş görməsindlər, israfdan yayınsınlar və ABŞ malları yerinə yerli mallardan istifadə etsinlər. Məktub bu cümlələrlə davam edir: “Elektron cihazlar, cib telefonları, kompüter və digər texnoloji cihazlarda yerli istehsal və ya yerli marka tərcihinə diqqət edilməli və xarici ölkə məhsulu seçiləndə, başda Amerika olmaq üzrə ölkəmizə siyasi və iqtisadi təhdid tətbiq etməyə çalışan ölkələrin məhsulları xaricindəkilər seçilməlidir. Əgər xarici məhsul seçimi zəruridirsə, bu halda Amerika məhsullarından qaçmaq lazımdır”.

17 avqust tarixindən etibarən bir çox elektrik mallar satan mağazalar iPhone telefonlarının satışını dayandırıb. Bunlardan biri də BİM şəbəkəsidir. Onlar 17 avqustdan etibarən “iPhone 6" telefonlarını aktual məhsullar kataloqundan çıxarıblar.

Pərakəndə satış şəbəkəsi müştərilərin mağazada asılı qalan xəbərdarlığı görməsinə görə oraya çıxan durumu açıqlayan bu yazını yayımlayıb: “Hörmətli müştərilərimiz, 17.08.2018 tarixində afişamızda yer alan telefon "iPhone 6" məhsulumuzun satışı dayandırılıb. Anlayışınız üçün təşəkkür edirik".

Ankaranın Keçiören bələdiyyəsi də Türkiyəyə qarşı başlanan iqtisadi müharibəyə soyuq qalmayıb, yenə bir ilkə imza atıb. Bələdiyyə məclisi ABŞ mənşəli firmalara bu gündən etibarən fəaliyyət icazəsi verilməməsinə qərar verib.

Bundan başqa, türk lirəsi üzərindən başladılan iqtisadi hücuma qarşı bələdiyyə tərəfindən bütün bölgəyə üzərində “milli paramız, milli davamız” lövhələr asılıb, vətəndaşlara xarici pulların xırdalayıb, türk lirəsinə sahib çıxma çağırışı edilib.

Sözügedən çağırışda “McDonalds”, “BigMac” və “Coinler” firmasının adı çəkilib. Bundan sonra sözügedən firmalara fəaliyyət izni verilməsi məsələsi sual altında olacaq.

**Bu arada ABŞ hökumət işçilərinin “Huawei” və “ZTE” markalı məhsullardan istifadəsi qadağan edilib. Artıq heç bir hökumət işçisi, dövlət qurumları ilə işbirliyində olan şəxs Huawei ve ZTE markalı məhsullardan istifadə etməyəcək. Çinli texnologiya divlərinə yönəlmiş bu qadağa ABŞ və Çin arasındakı ticarət müharibəsi ilə birbaşa əlaqəlidir.**

❑ **Sevinc TELMANQIZI, “Yeni Müsavat”**

# “Azərbaycan təcili Xəzər donanmasını gücləndirməlidir”-ekspertlər

## Rusiyanın Xəzərdə hərbi bazasını möhkəmlətməsi üçün hərəkətə keçməsi ciddi narahatlıq doğurur

**Ötən bazar günü Qazaxıstanın Aktau şəhərində Xəzərin statusuna dair Konvensiyanın imzalanmasının ardınca Rusiyanın müdafiə naziri Sergey Şoyqu Dağıstanda xüsusi müşavirə keçirib və hərbi bazanın yaradılması işlərini müzakirə edib.**

Rusiyanın Xəzərdə hərbi bazasını möhkəmlətməsi üçün hərəkətə keçməsi ciddi narahatlıq doğurur. Gedən müzakirələrdə Xəzərin hərbisizləşdirilməsinin vacibliyindən də söz açılır. Belə olarsa, Xəzər üzərində təhlükəsizliyin daha çox təmin olunacağı vurğulanır.

**Qərb Universitetinin Tətbiqi Politologiya Mərkəzinin rəhbəri Elxan Şahinoğlu** hesab edir ki, Xəzərin hüquqi statusu ilə bağlı mövcud vəziyyət Rusiyanı qane etmir: “Rusiyanın müdafiə naziri Sergey Şoyqunun Qazaxıstanın Aktau şəhərində Xəzərin statusuna dair Konvensiyanın imzalandıqdan dərhal sonra Dağıstanda xüsusi müşavirə keçirməsi ciddi suallar doğurur. Şoyqu Dağıstanda Xəzərdə yeni hərbi bazanın yaradılması işlərini müzakirə edib, Dağıstanın Kaspiysk şəhərində müasir hərbi dəniz bazasının tikilməli olduğunu tapşırıb. Hazırda bazanın tikintisinə hazırlıq gedir. İnfrastruktur qurulur. Sergey Şoyqunun sözlərinə görə, Kaspiysdəki hərbi bazada hərbi qulluqçuların sayı çox olacaq. Bundan başqa Mahaçqala şəhərinin limanında hər obyektlər tikilir. Xəzərin statusu müəyyənləşəndən dərhal sonra Rusiyanın müdafiə nazirinin Dağıstana gedib hərbi liman tikintisinin sürətləndirilməsi barədə açıqlama verməsi nəyə lazım idi? Bu kimə və ya kimlərə mesajdır? Axı Aktauda imzalanan Konvensiyada da bildirilib ki, sahil ölkələri Xəzər aid olmayan ölkələrin hərbi hövzədə hərbi iştirakına imkan verməyəcəklər. Yəni Rusiyanın narahatlığına əsas qalmayıb. Belə isə Rusiyanın Xəzərdə gücləndirdiyi hərbi dəniz donanmaları hansı dövlətə qarşıdır? Görünür, mövcud vəziyyət yenə Rusiyanı qane etmir. Əks halda Rusiya Xəzər donanmasının gücləndirilməsi üçün əlavə 18 yeni hərbi gəmi göndərməzdi. Deməli, Rusiya tərəfdaşlarına da inanmır və Xəzər hövzəsində liderliyini göstərir. Mənə elə gəlir ki, Xəzərin statusu ilə bağlı danışıqlar prosesində Xəzəri sahili dövlətlərin diplomatları bu məsələylə bağlı Rusiya nümayəndələrinə suallar verməli idilər. Bu suallar indi də səslənməlidir. Əgər Rusiya başqalarının rəyini nəzərə almayaraq Xəzərdə donanması gücləndirirsə, Azərbaycan da müstəqil dövlət kimi Xəzərdəki öz donanmasını gücləndirməlidir. Azərbaycanın Xəzərdə zəngin yataqları var, bu yataqların təhlükəsizliyi artırılmalıdır. Üstəgəl əgər Xəzərin statusu müəyyənləşəndən sonra Xəzərin dibi ilə Türkmənistanla Azərbaycanı birləşdirən Transxəzər boru xətti tikiləcəksə demək elə bu səbəbdən də donanmamızı gücləndirməyə ehtiyac var”.



**“Sivilizasiyalar və konfliktlər” Analitik Mərkəzinin rəhbəri Əhəd Məmmədli** Azərbaycanın Xəzər donanmasını gücləndirməsinin vacibliyini vurğuladı: “Rusiya hər yerdə özünü təsdiq etmək istəyir. Onsuzda Xəzərdə ən güclü donanma Rusiyanındır. Ən azından indiki vəziyyətdə Xəzərdə yerləşən digər ölkələr Rusiyaya təhlükə deyil. Rusiya bu cür addımları ilə həqiqətən bölgədə, digər ölkələr üçün ən böyük təhlükə olduğunu göstərir. Azərbaycan təcili sürətdə Xəzərdə donanmasını gücləndirməlidir. Nə vaxta qədər ki Rusiyada şahinlər hakimiyyətdə olacaq, hər zaman Azərbaycanın müstəqilliyinə böyük təhlükələr olacaq. Rusiya harada varsa, oranı hərbisizləşdirmək mümkün deyil. Çünki Rusiya daim silahlanır. Azərbaycan Xəzər donanmasında hərbi quru qüvvələri kimi, güclü hərbi dəniz qüvvələri də qurmalıdır. Rusiyadan hər şey gözləmək olar. Ona görə Azərbaycan daim Xəzərdə hazırlıqlı vəziyyətdə qalmalıdır”.

❑ **Cavanşir ABBASLI, “Yeni Müsavat”**

# ABŞ-ın dünya ilə savaşının məqsədi-"tək güc" olmaq iddiası

## Ekspert: “Bu ölkə müasir imperiyadır”



**Hazırda dünya gündəmində ABŞ-ın fərqli dövlətlərə qarşı atdığı addımlar əsas yer alıb. Sanki bütün qitələrdə savaşmağı qarşıya məqsəd qoyan Amerika, bir növ tək güc olmağa çalışır. Son dönəmlərdə isə Amerikanın Türkiyə, İran, Rusiyaya qarşı açdığı “soyuq müharibə” diqqətlərdən yayınmır. Məsələ burasındadır ki, dünyada Amerika bir supergüc dövlət kimi qəbul edilib. Onun iqtisadi, hərbi gücü, dünyaya təsir imkanları danılmazdır. Bəs, bütün bunların fonunda Amerika təzyiq və təsirlərini artırmaqla, müxtəlif ölkələrə sanksiyalar tətbiq etməklə əslində nəyə nail olmağa çalışır?**

“Yeni Müsavat”a danışan **politoloq Nəzakət Məmmədova** bildirib ki, Amerika tək gücdür, amma elə bir tək güc yoxdur ki, onun liderliyi və ya hegemonluğu dünya tərəfindən qeyd-şərtsiz qəbul olunsun: “Onun qüdrəti sarsıdılmağa çalışılır, hətta müttəfiqləri son zamanlar onun düşmənlərinin daha çox yanında olur, nəinki Amerikanın. Avropa Birliyi, Türkiyə kimi müttəfiqlər ABŞ-dan çox Rusiya, Çin, İranla birləşir. Lakin bununla belə hələ ki, ABŞ-a real meydan oxuya bilən bir dövlət yoxdur. Hətta Avropa Birliyi, Çin, Rusiyanın bir yerdə götürülmüş qüvvəsi belə ABŞ-la müqayisə oluna bilməz. Bu ölkə müasir imperiyadır. Fövqəldövlət, supergüc kriteriyalarına tam cavab verir”.

**Politoloq bildirib ki, Trampı hakimiyyətə gətirən hərbi-silah, yaxud maliyyə nəhəngləri dünya üçün hazırladıqları pis sürprizləri prezidentin çılğın xarakterinin təzahürü kimi qələmə vermək istəyirlər:** “ABŞ o ölkələrdən deyil ki, prezidentin şəxsi xarakteri bu dövlətin xarici siyasətinə təsir etsin. ABŞ-da hakimiyyətin idarə olunmasına real təsir edən qüvvələr belə bir hal olduqda dərhal ya prezidenti impiçmentə göndərir, ya da sui-qəsd edirlər. Prezidentin şəxsi iradəsi heç nəyi həll etmir, o, onu bu mövqeyə gətirib-çıxaran maliyyə, hərbi konsern nəhənglərinə tabe olub, onlarla hesablaşmalıdır. Əks halda onu ya uzaqlaşdırır, ya fiziki məhv edirlər. Kennedi, Linkoln və başqaları buna misaldır. ABŞ-ın əsl məqsədi bəşəriyyət tarixində indiyədək gəlmiş-getmiş bütün imperiyalar kimidir: təkbaşına dünya ağalığına nail olmaq, mümkün qədər çox ərazi və resurslar əldə etmək, dünyanı özünə tabe etmək. Dövlətləri də idarə edən insanlardır. İnsanların istəkləri isə dünya yaranandan bəri tarix boyu eyni olub. Resurslar, sərvət uğrunda mübarizə. Sadəcə, dediyimiz kimi vasitələr və metodlar dəyişir. Məsələn, Səlib yürüşləri zamanı guya İsanın qəbrini müsəlmanlardan xilas etmək missiyası altında Şərqin sərvətlərini ələ keçirmək üçün Yaxın Şərqə hücumlar olunurdusa, bu dəfə demokratiyanı yaymaq adı altında proseslər gedir. ABŞ demokratiya ideologiyasından pərdə kimi istifadə edir. Lakin din də heç də arxa plana keçməyib. Real olaraq və ya bəhanə kimi din amilinin rolu qalır. Türkiyə və ABŞ gərginliyinə səbəb və ya bəhanə olan Gülən və Bronson din xadimi deyilmi?! Belə bir fikir də var ki, problem ABŞ-ın ədalətsiz olmasında deyil. Problem gücün, qüdrətin mahiyyəti məsələsidir. Yəni güc kimin əlindədirsə, o elə ABŞ kimi davaranardı. Məsələn, 18-ci əsrdə ABŞ yeni yaranan dövlət idi və digər ölkələrlə indiki kimi davrana bilmirdi, çünki zəif idi. Həmin dövrün hegemonları Osmanlı, Rusiya, Fransa, İngiltərə idi. Onlar ABŞ-ın indi olduğu kimi hökmranlıq, dominantlıq edirdilər. Lakin 19-cu əsrdə Osmanlı, Fransa imperiyası zəiflədi. Almaniya, Avstriya gücləndi. 20-ci əsrin əvvəllərində Osmanlı, Avstriya-Macarıstan xəritədən silindi. ABŞ, İngiltərə, Fransa gücləndi. SSRİ imperiyası meydana gəldi”.

**N.Məmmədovanın sözlərinə görə, hər bir dövlət güclü olduğu zamanlar təxminən ABŞ-ın indiki davranışı kimi davranış sərgiləyiblər:** “İndi isə ABŞ-ın gücünə alternativ potensial ortaya qoya bilmədikləri üçün onu ədalətsizlikdə ittiham edirlər. Halbuki onlar güclü olduğu zaman yeni yaranmış ABŞ-a təzyiq göstərirdi. Demək, problem ABŞ-da yox, gücün mahiyyətində, ondan sui-istifadə edərək özündən zəif dövlətlərə təzyiq göstərmək məsələsindədir. Sanksiyalar, qadağalar yaqin ki, yeni dünya nizamının necə fofmalaşmasına təsir edəcək. Çünki beynəlxalq münasibətlərdə hər yaranan yeni sistem bu cür münaqişə, müharibə, koalisiyalararası müharibələrin sonra birinin məğlubiyyəti, digərinin qalibiyyəti ilə başa çataraq yeni nizamın yaranmasına təkan verib. Əgər ABŞ vaxtında bu qədər etiraza, müqavimətə saymazyana yanaşsa, onun da hegemonluğunun sonsuz olmayacağı qətidir. Çünki bu qanunauyğunluqdur və ondan heç bir dövlət yayına bilməz”.

❑ **Əli RAİS, “Yeni Müsavat”**

# İş elanlarındakı tələlərə necə düşməməli - xanımlar üçün 6 qızıl qayda

## Qiymətli məsləhətlər, qan donduran dələduzluq hekayələri bu yazıda

**“Yeni Müsavat”ın ötən sayında qadınlar üçün iş elanı verib, onları tələyə salan, intim təklif edən Bakı sakini Fariz Babayev (əsl adı Faiz Bastrakov - red.) barədə yazmışdıq. Bu şəxs guya işə götürən şəxs adından elan verərək, qızlara sərfəli iş və yaxşı maaş təklif edir. Nəzərə alanda ki, ölkənin əmək bazarında müəyyən problemlər və çətinliklər var, aydındır ki, belə vakansiyaya sahiblənmək istəyənlər çox olacaq.**



Ancaq məlum olub ki, elandakı bütün bu yönəltmələr adi bir tələ yemi imiş: sən demə, F.Basrtakov, sadəcə, qızları və qadınları iş haqda “söhbət” adı ilə aldadıb tora salır və onları nikahsız birgə yaşayışa sövq etməyə çalışırmış - bəzilərini facebookda, bəzilərini - telefonda, bəzilərini isə - realda.

### Dələduz elanlarındakı açar sözlər - “gecə prime time katibə”, “ofisdə rahat geyinən qadınlar”

“Yeni Müsavat” bu hadisədən yola çıxaraq, iş elanları ilə qadınları aldadan firmalar barədə gəzişmə edib. İş tapmaq arzusu ilə qəzetlərdə yer alan “İşçi axtarılır” elanlarına müraciət edənlərin bir qismi xoşagəlməz münasibətlə qarşılaşırlar. Mütəxəssislər qəzetlərdə, internetdə yer alan bu sayaq elanlarla bağlı xəbərdarlıq edir və onlarla bağlı araşdırma aparılmasını təklif edir.

“İşçi axtarılır” elanlarında özəlliklə qadınlara yönəlik ifadələr diqqət çəkir. İş elanı verilərkən xüsusən “gənc”, “gözəl”, “gözəl bədən quruluşlu”, “subay” qadınlar axtarılır və onlara “yüksək məvacib” təklif edilir. Türkiyədə bu cür elanlar üçün təklif edilən məvaciblər 4500 manata qədər çıxır. Hazırladıqları saxta elanları çox cüzi miqdar ödəyərək, qəzetlərin elanlar səhifəsində və ya internet səhifələrində yerləşdirən bu şəxslər həmin yolla bir çox gənc qızla əlaqə qurur. “Home ofis” çalışdığını iddia edən şəxslər gənc qızlarla vədələşərək, yalançı elanlarla bağlı görüşürlər. İş görüşməsi adı ilə bu sayaq yerlərə gedən qızlar isə orada açıq-aşkar sataşmalara məruz qalırlar.

Mütəxəssislər, ümumiyyətlə, qəzetlərin bu sayaq elanları verərkən daha diqqətli olmalarının vacibliyini bildirirlər. Bəs hansı elanın saxtakarlara, dələduzlara aid olduğunu necə bilmək olar? “Yeni Müsavat” bununla bağlı bəzi incə detalları nəzərə çatdırır.

Bir çox hallarda internet və qəzetlərə işçi elanı verən əxlaqsızlar “mənə özəl diqqət göstərəcək, rahat tərzdə geyinəcək qadın işçilər axtarıram” cümləsindən istifadə edir. Onlar bununla da qadınlara qarşı tələ qurmaq niyyətini ortaya qoyurlar. İşə ehtiyacı olan qadınların etibarını qazanaraq onları öz tələlərinə salmaq istəyən bu şəxslər elə elanda da öz niyyətlərini ortaya qoyurlar. “Gecə part-time katibə, ofisdə rahat geyinəcək xanım əməkdaş, mənə özəl diqqət göstərəcək assistent” kimi şərtlər irəli sürən bu şəxslər şərtlərini qəbul edəcək insanlara yüksək məvacib və sığorta təklif edirlər.




### Şirkətin adı yoxdur

Əlaqə vasitələrini elanda açıq şəkildə yazan bu şəxslər yüksək məvacib, sığorta, yol pulu kimi vədlərlə qadınları görüşə razı salmağa çalışırlar. Qadınlar elektron məktub vasitəsilə bu elan sahibləri ilə əlaqə qurduqları zaman “Şirkətinizin adı nədir” sualına israrla üz-üzə görüşmə istəyi ilə qarşılıq verirlər. Mütəxəssislər qadınlara bu cür elanlardan uzaq dayanmaları ilə bağlı xəbərdarlıqlar ediblər. Onlara diqqət!

* İş görüşməsinə gedəcəyiniz şirkəti öncədən araşdırın.

* İnternetdən tapılan iş elanlarında öncə şirkətin adını və yerini öyrənin.

* Görüşə gedərkən ən azı, bir tanışınıza xəbər edin.

* İmkanınız varsa, iş görüşməsinə gedərkən yanınızda biri də olsun.

* Şirkəti müvafiq qurumlardan araşdırın.

* İş sahəsini açıqlamayan, “fərqli sahələrdə fəaliyyət” adı ilə özünü təqdim edən şirkətlərə şübhə ilə yanaşın.

**Türkiyənin “Təqvim” qəzeti bu sayaq elan verən şirkətlərdən birinin rəhbəri ilə aşağıdakı yazışmanı aparıb:**

- Mənim təcili olaraq işə ehtiyacım var və şərtləriniz mənə uyğundur. İş yeri haradadır?

- Elandakı məsələni yetərincə anlada bildimmi, bilmirəm, amma telefonunu versən, görüşərik. Ya da bir az özündən danış.

- Sizə CV-mi göndərərəm. Ancaq ünvanınız necədir?

- Ofisdə mənə yardım edəcək, zaman problemi olmayan, müstəqil, baxımlı, xoş, maddi və mənəvi hər cür paylaşım edəcəyim biri olsun istəyirəm. Mən mühəndisəm, inşaat məsləhətçisi işləri ilə məşğulam. 41 yaşındayam, 1.82 boyunda, 80 kiloyam. Ofis Çankayada. Elan, sadəcə, iş məqsədli deyil. Özəl həyatın paylaşımı və zamanla yaranacaq qadın-kişi münasibəti. Onun üçün də CV-dən daha çox sənin necə biri olduğun, şəklin mənim üçün önəmlidir. Amma istəsən, CV-ni də göndərə bilərsən. Cavabını səbirsizliklə gözləyirəm".

### “Patrona özəl diqqət”

Keçək digər elanlara. Düzdür, bu sayaq elanlar daha çox Türkiyədə yayılıb. Amma yazının girişində yazdığımız nümunədə gördüyünüz kimi, Türkiyədəki nümunələr çox sürətli şəkildə Azərbaycana ayaq açır.

“İstanbulun Anadolu hissəsindəki inşaat firmasına bədən quruluşu gözəl, ofis içində açıq geyinəcək, patronun özəli ilə də maraqlanacaq evli-subay xanım əməkdaşlar işə götürülür. MSN ünvanınızı əlavə edin, görüşək”. “Məsləhətçi xidməti verdiyim ofisdə həm işlərimlə maraqlanacaq, həm də mənə özəl diqqət göstərəcək, gözəl bədən quruluşlu, 18-35 yaş aralığında maddi və mənəvi məsələlərdə qarşılıqlı bir-birimizə dəstək verəcəyimiz part time çalışma dostu istəyirəm”.

### “Rahat geyinən iş yoldaşı axtarıram”

“Xanım iş yoldaşı axtarıram. Təkbaşıma çalışdığım iş yerimdə telefonlara cavab verəcək, toplantılarımızda şəhər xaricinə çıxa biləcək şəxslərin telefonlarını gözləyirəm. Namizədlər iş görüşməsinə rahat geyimdə gələ bilərlər”.

“İstanbul Avropa hissəsində ev ofisimdə olmaq üzrə, 22-30 yaş arası, özünə və bədəninə güvənən, baxımlı, xarici görünüşünə və geyiminə önəm verən, ”mən sıradan bir qadın deyiləm" deyən rahat tövrlü, mənimlə özəlimi də paylaşa biləcək qadın yardımçı, assistent, özəl katibəyə ehtiyacım var. Qeyd etdiyim özəlliklərə sahibsinizsə, mənimlə əlaqə yaradın. Maaş namizədin özəlliklərinə görə fərqli dəyərləndiriləcək".

Qadınları tələyə düşürməyə çalışan saxtakar “iş elanları” müəllifləri daha çox facebook üzərindən aktivlik edirlər. “Öz evinizdən çalışaraq 1 həftədə 800 TL qazanın” şüarı ilə qurbanlarına müraciət edirlər. Onlar bunun üçün facebook səhifələrindən istifadə edir, facebookda minlərlə təqibçisi olan bir fan səhifəsi ilə anlaşıb, orada reklamını edirlər. Bu yolla da daha çox istifadəçiyə çatmağa çalışırlar.

Sözügedən elan saytlarını araşdıranda üzə çox şaşırdıcı rəqəmlər çıxır. Onlar iddia edirlər ki, guya 1 ay ərzində 4 milyondan artıq insanla əlaqə yarada bilirlər. Amma bu saytın alexa.com vasitəsilə durumu araşdırılanda 13,177,860-cı sırada olduğuna şahid oluruq. Yəni bu sayaq saytların nəinki 4 milyon, bir ayda 1000 nəfərə çatımlı olması da mümkün deyil.

### Hər zaman cinsi istismar olmur

Amma qadınları işə dəvət edən elanlarda heç də hər zaman seksual xarakterli istismar olmur. Qadınların daha asan aldadıla biləcəyini düşünən dələduzlar onlara yönəlik fərqli elanlar yayırlar. İki il bundan əvvəl iş elanı saytlarında yerləşdirən məlumatda “Xan Dad Halal Nemət” adlı kolbasa zavoduna işçi axtarıldığı bildirilirdi: “Xan Dad Halal Nemət” kolbasa zavoduna işçi qadın fəhlələr tələb olunur, istehsal olunan kolbasa və sosislərin çeşitlənməsi və asqılara yığılması, sosislərin çəkiylə qablaşdırılması, qablaşdırılmış sosis və kolbasaların etiketlərinin vurulması işləri. Hər həftənin 5-ci günləri 20 manat dəyərində kolbasa və sosis evlərinə aparmağa icazə veriləcək. Bayramlarda 50 AZN əmək haqlarına əlavələr olunacaq, İş qrafiki: həftənin 6 günü, saat 09.00-18.00 Bazar günü İstirahət günü. 650 AZN əmək haqqı. Yaş: 19-55 yaş arası, cinsi: qadın, təhsil: ali və ya orta, satış və distribusiya sahəsində iş təcrübəsi arzu olunandır. Peşəkar keyfiyyətlər: tez öyrənmə qabiliyyəti. Müraciət edən namizədlər göstərilən vatsap nömrəsinə göndərdikləri CV xarakterli məlumatlar arasından qiymətləndirmə aparılaraq seçiləcəklər. Yuxarıda qeyd olunan tələblərə cavab verən şəxslər göstərilən vatsap nömrəsinə özləri haqda CV xarakterli məlumatlarını göndərə bilərlər".

Bu dəfə elan daha professional hazırlanıb və hədəf kütlə olaraq, sadəcə, qadınlar nəzərdə tutulub. İlk baxışdan normal iş elanı kimi görünsə də, vatsapda qarşıya qoyulan tələblər elanın ənənəvi dələduzluq vasitəsinin olduğunu göstərir. Belə ki, sadəcə, vatsap ilə əlaqə saxlayan dələduzlar sığorta ödəməsi olaraq 49 manat tələb edir. Bildirilir ki, iş üçün müraciət edən şəxs ödəmə etdikdən sonra qeyd olunan vatsap nömrəsi: 050 508 10 39 ilə əlaqə saxlaya bilər. İnsanlar bu nömrə ilə əlaqə saxlamağa çalışsa da, buna nail olmur. Nəticədə pullarını itirir və işsiz qalırlar.

**Sonda... Günümüzün ağır sosial şərtləri daxilində ailəsinə, evinə maddi dəstək olmaq istəyən qadınları bu sayaq tələlər də gözləyir. Məlumatsızlıq, təcrübəsizlik qadınları arzuolunmaz vəziyyətə sala bilər. Ona görə də yuxarıda yazdığımız detalları diqqətlə oxuyun, bu tələlərə düşməyin.**

**❑ Sevinc TELMANQIZI, “Yeni Müsavat”**

**Naxçıvanda bundan sonra toylarda yemək verilməyəcək. Cebhe.info saytının yazdığna görə, bu barədə sosial şəbəkələrdə məlumat yayılıb. Belə ki, toylarda israfçılığın qarşısını almaq üçün tədbirlərə başlanılıb. Artıq sentyabrın 1-dən etibarən Naxçıvandakı toy şənliklərində qonaqlara ancaq çay və şirniyyat təklif ediləcək. Bunun israfçılığın qarşısını almaq üçün edildiyi bildirilir.**

# Naxçıvandan gələn qadağa xəbəri Bakıda “toyla” qarşılandı

## Təsdiqlənməmiş məlumatda deyilir ki, sentyabrın 1-dən etibarən Naxçıvandakı toylarda qonaqlara ancaq çay və şirniyyat təklif ediləcək



“Naxçıvanda toylarda israfçılığın qarşısının alınması üçün verilən qərar barədə xəbər doğrudursa, birmənalı dəstəkləyirəm”.

Kult.az xəbər verir ki, bu sözləri **millət vəkili Fazil Mustafa** Naxçıvanda toylarda yemək verilməməsi barədə yayılan məlumatlara münasibət bildirərkən deyib. O bildirib ki, bu cür toy və yas mərasimləri həm maddi, həm də vaxt itkisidir: “Öz mədəni həyatını doğru qura bilməyən cəmiyyətlərin inzibati yolla sağlam yaşam tərzinə alışdırmaqdan başqa yol qalmır. Toy, yas mərasimləri qarın otarmaq yeri deyil, yeni qurulan ailələrə, həyatdan köçənlərin yaxınlarına dəstək yeridir. Kimsəni xərcə, sıxıntıya salmadan əylənmək də olar, kədərlərinə şərik olmaq da. Nəhayət ki, bu vəhşi toy adətimizdən, qeyri-mədəni yas mərasimlərimizdən qurtulmanın yolu tapılmalıdır. Hələ toy səviyyəsində keçirilən xınayaxdı, ciyəraxşamı kimi tədbirlər də maddi və vaxt israfının mənasız formalarıdır. Yüksək məbləğə toya dəvət edilən müğəninin canlı səsini duymaq olmur, ancaq təkcə özünü nümayiş etdirməyə görə azərbaycanlı ona səxavətlə pul ödəyir”.

Qeyd edək ki, uzun illərdir ki, ölkəmizdə toylarda kütləvi şəkildə israfçılığa yol verilir. Əndazəni aşan, bahalı, təmtəraqlı toylar barəsində dəfələrlə tənqidlər bildirilsə də, bu vəziyyət dəyişməz olaraq qalır. Təbii ki, bunun da əziyyətini toy sahibləri çəkir. Dəfələrlə toy pulunu ödəyə bilmədiyi üçün gəlin və bəyi restoranda girov saxlandılığını eşitmişik.

Ölkəmizə səfər edən turistlər də vurğulayır ki, Azərbaycanda keçirilən təmtəraqlı toylara nadir hallarda hansısa ölkədə rast gəlmək mümkündür. Məsələn, bizə çox yaxın qonşu olan Türkiyə və İranın özündə toylar çox sadə şəkildə təşkil edilir, keçirilir. Bir məqamı da qeyd edək ki, adı çəkilən ölkələrdə bizdə olduğu kimi sayı-hesabı olmayan təmtəraqlı şadlıq evləri də yoxdur, ümumiyyətlə buna ehtiyac duyulmur.

**Niyə təmtəraqlı, israfçı toylara can atırıq?**

Orta nəslin nümayəndələri də qeyd edir ki, zamanında ölkəmizdə toy məclisi təşkil etmək yeni ailə həyatı quran cütlüklərə kömək məqsədi daşıyırdı. Xüsusən də rayon və kəndlərdə qohum-əqrəbalar toy sahibinin evinə toplaşar, yeni evlənənlər üçün nəyin çatışıb-çatışmadığını müəyyənləşdirər və ümumilikdə bu məsələni həll etməyə çalışardılar. Lakin ölkəmiz müstəqillik qazandıqdan sonra toylarımızın mahiyyəti tamamilə dəyişməyə, dəbdəbəli keçirilməyə başladı. Beləliklə, bahalı toy keçirmək adət-ənənədən qaynaqlanan məsələ deyil.

Bəzi müsəlman ölkələrində bu problem olduğundan rəsmilər artıq inzibati yolla bunu aradan qaldırmağa başlayıb. Məsələn, bu ilin əvvəlində Özbəkistan prezidenti bəyanat yayaraq bildirdi ki, artıq məmurlar toya getməyəcək. Ən əsası isə toy sahibləri toya maksimum 120 nəfər çağıra bilər. Qanuna əməl etməyən isə xüsusi qaydada cəzalandırılacaq. Eləcə də Tacikistanda da toylarla bağlı ciddi məhdudiyyətlər qoyulub. Qanuna görə, toyda israfçılıq olmaz və eyni zamanda toya yalnız 150 nəfər gələ bilər. Beləliklə, normadan artıq toya qonaq çağıran, habelə toyda normadan artıq yemək verən toy sahibləri cərimələnir, yeməklər müsadirə olunur.

**"Sosial bəla" - Bakı toyları**

Xatırladaq ki, bir neçə il öncə Naxçıvanda yas mərasimlərində israfçılğa qarşı sərt qadağa qoyulmuşdu. Qərara əsasən ehsan süfrələri qənd-çayla məhdudlaşdırıldı. Bundan sonra bu tendensiya getdikcə Bakı və Bakıətrafı kəndlərinə də təsir etməyə başladı. Bir neçə Bakı kəndində ağsaqqalların qərarı ilə yas mərasimlərində israfçılıq aradan qaldırıldı. İnsanlar tezliklə bütün ölkədə bu tendensiyanın işə düşəcəyini düşünsə də, ehtimallar özünü doğrultmadı. Bu gün də paytaxt Bakıda vaxtaşırı təmtəraqlı yas mərasimlərinə rast gəlirik.

*Maraqlıdır, bəs Naxçıvandakı toy qadağası Bakıya da gələ bilərmi? Bu qadağa özünü doğrulda biləcəkmi?*

Mövzu ilə bağlı **sosioloq Əhməd Qaşəmoğlu** “Yeni Müsavat”a danışıb: “Naxçıvanda toylarda israfçılığın aradan qaldırılması məsələsini alqışlayıram. Çünki dəfələrlə mətbuat, media toylardakı israfçılığa bağlı məsələni gündəmə gətirsə də, bir nəticəsi olmur. Ona görə də düşünürəm ki, burada yalnız inzibati yola əl atmaq bir nəticə verə bilər. Beləliklə, artıq Naxçıvanda inzibati üsuldan istifadə olunur və mən bunu dəstəkləyirəm. Orada bundan əvvəl də yas mərasimlərində israfçılığa son qoyulması ilə bağlı qərar verilmişdi. Artıq Naxçıvanda Bakıdakı kimi təmtəraqlı yas mərasimləri təşkil edilmir, məsələ sərtləşdirilib. Lakin Bakı və digər bölgələrdə təmtəraqlı, israfçı toylar davam edir və bu da insanlara həm maddi həm də mənəvi cəhətdən kifayət qədər zərbələr vurur. Buna görə mən toylarımızı "sosial bəla" sayıram.

Məlum məsələdir ki, əslində toyun mahiyyəti iki gəncin ailə qurmasıdır, bu bir tarixi gündür. Məsələni elə qoymaq lazımdır ki, bu toy nə çox təmtəraqlı olsun, nə də ki rəsmi tədbirə oxşamasın, şən ovqatlı bir məclis olmasına çalışmalıyıq. 40-50 il bundan əvvəl toylar bu cür keçirilirdi. Yəni o illərin normativinə uyğun, şən ovqatda olurdu, yadda qalan xatirə də həmin şənlik idi.

Lakin çox təəssüf ki, müstəqillik əldə etdikdən sonra toylarda israfçılıq baş alıb getməyə başladı. Beləliklə, hazırda yeni toy modelinin üzərində düşünməliyik. Bu sahədə boşluq var. İnsanlar da bilmir ki, hansı modeldən istifadə etsinlər".

Sosioloq onu da qeyd etdi ki, Naxçıvanda toy süfrələrinə qoyulan qadağa Bakıya və digər bölgələrə tam yayıla bilməyəcək:

“Bu haqda çoxlu araşdırma da apardım ki, niyə Naxçıvanda yas mərasimlərinə qoyulan qadağa Bakı və digər bölgələrdə öz yerini tapa bilmədi? İndi də düşünürəm ki, toyla bağlı məsələ yayıla bilməyəcək. Çünki Bakıda çox güclü toy və yas şəbəkəsi var. Həmin şəbəkənin təmtəraqlı toy və yas mərasim zalları, şadlıq evləri var. Buna böyük biznes kimi baxan, arxasında dayanan kifayət qədər iri vəzifəli, imkanlı şəxslər var. Onlar bu məsələdə çox ciddi müqavimət göstərirlər. Düşünürəm ki, toylarda israfçılıqla bağlı məsələ də ciddi müqavimətlə üzləşəcək. Lakin bunun ayrı yolu yoxdur, inzibati üsul mütləq Bakıda da tətbiq olunmalıdır. Çünki ailələrin əksəriyyətinin toylara getmək üçün maddi imkanı yoxdur. Bunun üçün ya rüşvət almalı, ya da başqa yolla pul tapmalıdır ki, toylara gedib, pul yazdıra bilsinlər. Həmçinin toyda verilən çoxlu sayda, çeşid-çeşid yeməklər insan sağlamlığına təsir edir. Toyda yaranan ab-hava, geyim nümayişi əhalimizin cibinə, mənəviyyatına ciddi zərbə vurur. Bu, dözülməz bir haldır.

Ona görə də Naxçıvanda belə qərar varsa, çox sevinərəm. Bəlkə bundan təsirlənərək, Bakı və digər bölgələrdə toy israfçılığı müəyyən zərbə alar, bəlkə müəyyən ayılma prosesi baş verər. Bunun üçün də çox istərdim ki, mətbuat Naxçıvandakı son qərarı kifayət qədər işıqlandırsın ki, digər bölgələrdə də tətbiq olunsun".

❑ **Xalidə GƏRAY,**
**“Yeni Müsavat”**

# Məktəblinin məhkəməsi başlayıb

## O, xuliqanlıqda və hədə-qorxu ilə pul tələb etməkdə təqsirləndirilir



**2001-ci il təvəllüdlü məktəbli hakim qarşısına çıxarılıb. Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində xuliqanlıqda, hədə-qorxu ilə pul tələb etməkdə təqsirləndirilən 2001-ci il təvəllüdlü Kərim Əzizovun (ad və soy ad şərtdir) cinayət işi üzrə məhkəmə iclası başlayıb.**

Hakim Azər Paşayevin sədrliyi ilə keçirilən məhkəmə iclasında dövlət ittihamçısı ittiham aktını elan edib.

İttihamda yazılır ki, yetkinlik yaşına çatmayan Kərim Əzizov xuliqanlıq və hədə-qorxu ilə pul tələb etmə cinayətləri törədib.

Belə ki, Kərim eyni məktəbdə oxuyan Yaşar Qədimova (ad və soy ad şərtidir) özünü kriminal aləmin üzvü kimi təqdim edərək, onu döyəcəyini deyib və 60 manat alıb.

Bu səbəbdən aralarında yaranmış mübahisə zəminində o, Yaşara beysbol taxtası ilə zərbələr endirib. Bundan başqa, Yaşarın yanında olan dostu Rasim Əliyevə (ad və soy ad şərtidir) də bıçaqla xəsarət yetirib.

Elan olunmuş ittihamla Kərim özünü qismən təqsirli bilib. O deyib ki, Yaşarla pula görə mübahisələri olub.

“Yaşar ilə münasibətim çoxdan var. Ona 100 manat borca pul vermişdim. Özümə paltar alacaqdım, amma Yaşar dedi ki, evə pul lazımdır. Mən də ona borc verdim. Həmişə alıb, vaxtında qaytarıb. Həmin gün Yaşardan pul istəyəndə dedi ki, yoxdur, olanda verəcək. Buna görə mübahisə elədik, dalaşdıq. Bizi müəllimənin otağına apardılar. Oradan çıxanda Yaşar, Rasim, bir də Qasım qapının ağzında idi. Yaşar dedi ki, səni gözləyirəm. Mən də razılaşdım. Məktəbin pəncərəsindən düşüb evə getdim. Beysbol taxtası və bıçaq götürüb gəldim. Məktəbin yanında görüşəndə Yaşarı taxta ilə vurdum. O yerə yıxılanda Rasim ayağımdan tutmaq istədi. İstər-istəməz bıçaq onun boğazını kəsdi. Onu bıçaqla vurmaq istəmirdim. Bıçaq dəyəndə hamı qaçdı.

Rasimi özüm yaxınlıqdakı klinikaya apardım. Ona dedim ki, orda deyərsən, yıxılmışam. Elə də oldu. Ora çatanda Rasim dedi ki, yıxılmışam. Sonra klinikadan 102-yə zəng elədilər. Mən də ordan qaçdım".

Məhkəmədə ifadə verən zərərçəkmişlər Kərimdən şikayətçi olmadıqlarını, barışdıqlarını deyiblər.

Qeyd edək ki, Orxan Rəhimov Cinayət Məcəlləsinin 182.2.2-ci (Hədə-qorxu ilə tələb etmə, yəni zərərçəkmiş şəxsin və ya onun yaxın qohumlarının şəxsiyyəti üzərində zor göstərmə, onların haqqında rüsvayedici məlumatlar yayma və ya onların əmlakını tələf etmə hədəsi ilə özgənin əmlakını və ya əmlaka olan hüququnu və ya əmlak xarakteri daşıyan digər hərəkətlər etməsini tələb etmə; eyni əməllər), 182.2.3-cü (zor tərbuq etməklə törədildikdə), 221 (xuliqanlıq) və 228-ci (qanunsuz olaraq soyuq silah gəzdirmə) maddələri ilə ittiham irəli sürülüb.

❑ **İlkin MURADOV,**
**Musavat.com**

YENİ MÜSAVAT
N 176 (7065) 18 avqust 2018

# "Qarabağ"ın rəqibi "eşşək arıları" oldu

## Ötən il klubumuz Moldova təmsilçisi "Şerif"i mübarizədən kənarlaşdırmışdı, bəs bu il?

**Çempionlar Liqasında mübarizəni dayandıran təmsilçimiz "Qarabağ"ın Avropa Liqasının pley-off mərhələsindəki rəqibi "eşşək arıları" kimi tanınan "Şerif" (Moldova) olacaq. Tiraspol təmsilçisi Avroliqanın üçüncü təsnifat mərhələsində İslandiyanın "Valyur" klubunu mübarizədən kənarlaşdırıb. İlk oyunda 1:0 hesabı ilə qalib gələn "Şerif" cavab matçında 1:2 hesabı ilə uduzsa da, səfər qolu sayəsində mərhələ adlayıb.**

"Şerif"in Ağdam klubu ilə ilk görüşü avqustun 23-də Tiraspolda, cavab matçı isə avqustun 30-da Bakıda keçiriləcək. Hər iki görüş Bakı vaxtı ilə saat 21:00-da başlayacaq.

**"Şerif" köhnə tanışdı**

Qeyd edək ki, komandalar ötən il ÇL üçüncü təsnifat mərhələsində rəqib olublar. Yada salaq ki, "Qarabağ" Gürcüstanın "Samtredia" klubuna iki oyununun nəticəsinə görə 6:0 qalib gələrək inamla Çempionlar Liqasının III təsnifat mərhələsinə vəsiqə qazandı və rəqibi "Şerif" oldu. Bakıda keçirilən ilk görüşdə "Qarabağ"ın bütün cəhdlərinə baxmayaraq, oyun qolsuz bərabərliklə yekunlaşdı. Tiraspolda keçirilən təkrar görüşdə "Qarabağ"ın sabiq üzvü Dino Ndlovun və Miçelin qollarına rəqib cəmi bir topla cavab verə bildi. Beləliklə, iki oyunun nəticəsinə görə "Şerif" ÇL mübarizəsini dayandırmalı oldu.

**Klubun tarixi**

"Şerif" klubu Moldovanın tanınmamış Dnestryanı bölgəsinin klubudur. Cəmi 21 illik tarixi olan klub 1997-ci ildə yaradılıb. Dnestryanı "müstəqil dövlət" kimi tanınmadığı üçün paytaxt Tiraspol klubu Moldova bayrağı altında çıxış edir. Yarandığı ildə klubu keçmiş SSRİ-də tanınmış futbol mütəxəssisi, 2015-ci ildə Ukraynada vəfat edən Əhməd Ələsgərov çalışdırıb ki, bu uğurda azərbaycanlı çalışdırıcının rolu danılmazdır.

21 illik tarixinə baxmayaraq, klubu Rumıniya, Ukrayna, Serbiya, Belarus və Xorvatiyadan olan əcnəbi məşqçilər çalışdırıb. Maraqlıdır ki, məşqçilərin bu cür rəngarəngliyi klubun heyətinə də ciddi təsir edib. Ukraynalılar gəlib beloruslar gedib, xorvat futbolçuları serblər əvəz edib, braziliyalılar, rumıniyalılar və daha kimlər... Klub 8 komandanın mübarizə apardığı yuxarı diviziondа 15 dəfə Moldova çempionluğu bayram edib. 9 dəfə ölkə kubokuna sahib olub.

2013-2015-ci illərdə isə klubun məşqçilər korpusuna rəhbərlik yerli mütəxəssislərə həvalə olunub. 2016-cı ilin payızından isə klubu italiyalı mütəxəssis, hazırda "Neftçi"nin çalışdırıcısı olan Roberto Bordin çalışdırıb.

Klubun hazırkı baş məşqçisi 1979-cu il doğumlu Qoran Sabliçdir. Xorvatiyalı Sabliç "Hayduk" və Dinamo(Kiyev) kimi klublarda oynayıb, milli komandanın heyətində də 4 il çıxış edib. Bundan əvvəl bir neçə klubda da məşqçi vəzifəsində görəv alıb. "Şerif"dən əvvəl Bosniya və Hersoqovinanın "Şiroki-Brieq" klubunu çalışdırıb. 2018-ci ilin iyunundan isə "Şerif"in baş məşqçisidir. Bodinanın aprel ayında istefasından sonra kluba rəhbərlik müvəqqəti olaraq Viktor Mixaylova həvalə olundu. Amma bu ilin iyununda klub rəhbərliyi xorvat məşqçi ilə anlaşdı. Maraqlıdır ki, onunla hansı müddətə müqavilə imzaladığı bilinmir. Məşqçilər heyətinə həmçinin Mirko Xrqoviç və Boris Peyrek daxildir.

**Güclü legionerləri var**

Klubun heyətində çox güclü həm yerli, həm də əcnəbi futbolçular var. Klubun əsas qapıçısı xorvat Zvonimir Mikuliçdir. Müdafiədə Viktor Olivyera uğurlu oynayır. Yarımmüdafiə xəttində braziliyalı var: Jo Santoş. Hücumda da "Şerif" əcnəbilərə üstünlük verib. Hücumda Jerson Leal Rodriqes təhlükəli ola bilər. Daha bir diqqətəlayiq hücumçu isə Belçikalı legioner Zidi Badibanqadır. Qeyd edək ki, o vaxt "Qarabağ"ın qapısından yeganə topu da məhz Zidi Badibanqa vurmuşdu. Valyur" klubu ilə səfər oyununda da klubun yeganə qolunun müəllifi yenə Zidi Badibanqa olub.

Klubun sloqanı isə "UBI CONCORDIA IBI VICTORIA"dır. (Tərcüməsi "Harada razılaşma var, orada qələbə var"). Klub ev oyunlarını 13 min azarkeş tutumlu müasir stadionda keçirir.

**Qızğın müzakirələr: kim qalib gələcək?**

Klubun rəsmi saytının məlumatına görə, artıq "Şerif"-"Qarabağ" oyununun biletləri satışa çıxarılıb. Moldova saytlarında "Qarabağ"la bağlı müzakirələr də başlayıb. Azarkeşlər ötənilki heyətin ciddi dəyişiklik edilməsindən məmnun görünür, hətta Emeqarın qırmızı kart aldığı üçün meydana çıxmayacağına sevinirlər də. Əlbəttə, "Qarabağ"ın "Şerif"dən daha yaxşı klub olduğu, oyunçuların fərdi ustalığının Moldova klubundan üstün olduğu barədə rəylər var. Zəif İslandiya klubunu zorla keçdikləri üçün kluba iradlar da kifayət qədərdir. "Havayı xəyallar qurmayaq, "Qarabağ" bizim "dişimizə" görə deyil" kimi rəylərə də rast gəlinir. Əksəriyyət isə azarkeşləri "Qarabağ"la ilk oyuna dəvət edir və ciddi dəstəyin "Şerif"ə uğur gətirəcəyinə inanır.

Biz isə bu oyun ərəfəsi yenidən maraqlı məlumatları oxucularla bölüşəcəyik. İnanırıq ki, "Qarabağ" "Şerif"i mübarizədən kənarlaşdıraraq Avroliqada yoluna davam edəcək.



















**72 komanda...**

Sonda bir daha qeyd edək ki, pley-offa vəsiqə üçün 72 komanda yarışacaq.

**ÇL mübarizəni dayandırmış klubların rəqibləri bu komandalardır:**

"Olimpiya" (Sloveniya) - "Spartak" (Trnava, Slovakiya)

APOEL (Kipr) - "Astana" (Qazaxıstan)

"Rusenborq" (Norveç) - "Şkendiya" (Albaniya)

"Düdelanj" (Lüksemburq) - ÇFR (Kluj, Rumıniya)

"Suduva" (Litva) - "Seltik" (Şotlandiya)

"Şerif" (Moldova) - "Qarabağ" (Azərbaycan)

"Malmö" (İsveç) - "Mityullann" (Danimarka)

"Torpedo" (Kutaisi, Gürcüstan) - "Lüdoqorets" (Bolqarıstan)

**Liqa yolu**

"Siqma" (Çexiya) - "Sevilya" (İspaniya)

"Sarpsborq" (Norveç) - "Makkabi" (Təl-Əviv, İsrail)

"Gent" (Belçika) - "Bordo" (Fransa)

"Partizan" (Serbiya) - "Beşiktaş" (Türkiyə)

"Rapid" (Vyana, Avstriya) - "Styaua" (Rumıniya)

"Apollon" (Kipr) - "Bazel" (İsveçrə)

"Reyncers" (Danimarka) - "Ufa" (Rusiya)

"Atalanta" (İtaliya) - "Kopenhagen" (Danimarka)

"Zenit" (Rusiya) - "Mölde" (Norveç)

"Trençin" (Slovakiya) - AEK (Larnaka, Kipr)

"Genk" (Belçika) - "Bröndbü" (Danimarka)

"Olimpiakos" (Yunanıstan) - "Börnli" (İngiltərə)

"Zarya" (Ukrayna) - "Leyptsiq" (Almaniya)

**Nazim SABİROĞLU,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
Son səhifə
N 176 (7065) 18 avqust 2018

# İt 23 metr hündürlükdən yıxıldı, sağ qaldı



Braziliyanın Vitoriya şəhərində ev iti yeddinci mərtəbədən yerə düşsə də, sağ qalıb. Bu haqda "Daily Mail" qəzeti məlumat verib. Laki ləqəbli it evin eyvanında olub. Amma pəncərənin "setka"sında boşluq olub və it ora toxunanda yerə yıxılıb. İt ümumilikdə 23 metrlik hündürlükdən yerə düşüb. Yerə yıxılanda it öncə ağaclara, sonra isə yerə dəyib. Evin sahibəsi Laki oğlu ilə birlikdə həyətə tələsərək qaçıb, iti yerdən götürüb və onu veterinar klinikaya aparıb. Ümumi müayinədən sonra məlum olub ki, it sağdır. Onda heç bir sınıq, qırıq aşkarlanmayıb, sadəcə yüngül zədələr üzə çıxıb.

Üç gün xəstəxanada qalandan sonra it evinə qayıdıb. Amma yenə də yıxıldığı pəncərəyə yaxın yerdə yatır.



## Meksikada qadın maneken qadağası

Meksikanın paytaxtı Mexikoda bələdiyyənin sponsor olduğu ictimaiyyətə açıq tədbirlərdə qadın manekenlərin istifadəsi yasaqlanıb. Mexiko bələdiyyə sədri Joze Ramon Amieva bələdiyyənin dəstəklədiyi tədbirlərdə qadın manekenlərin diqqət cəlb etmək üçün "cinsi obyekt" olaraq istifadəsinə son veriləcəyini dedi. Amieva deyib ki, qadın manekenlər idman yarışlarından ticarət sərgilərinə qədər ictimaiyyətə açıq olan tədbirlərdə "diqqət mərkəzi ünsürü" olaraq istifadə edilirlər: "Belə bir peşə olmamalıdır. Bu, cinsi bərabərlik siyasətinə ziddir".

Meksika ttp://www.milliyet.com.tr/meksika/da "edecane" (maneken) adı verilən qadın mankenlər sərgi, açılış və reklam tədbirlərində çox tez-tez göstərilir. Bir qrup qadın siyasətçi tərəfindən 2014-cü ildə bu məsələ ilə bağlı geniş etiraz aksiyası olub. Onlar bildiriblər ki, bu cür fəaliyyət sahələri bir çox hallarda insan alveri üçün zəmin yaradır, bu sahəni inkişaf etdirir. Ölkədə təxminən 1 milyona qadın və kişinin reklam manekeni olaraq çalışdığı təxmin edilir.

# Lotoreya biletini səhv doldurdu, 100 min dollar qazandı

Amerikalı qadın lotereya ərizəsini yanlış doldurduğu üçün 100 min dollar qazanıb. Bu barədə informasiya portalı UPI xəbər yayıb. Miçiqan ştatı, Vestland şəhər sakini Linda Keyançuk bir ədəd lotereya bileti alıb. Amma 64 yaşlı amerikalı dəqiq qaydada saytda bu bileti almaq üçün formu düzgün doldura bilməyib. Nəticədə yaşlı qadın bir uduş üçün 6 lotoreya bileti alıb. Növbəti gün isə qadının 100.4 min dollar pul uduğu məlum olub. Alınan iki biletdə 6 rəqəmdən beşi, qalanlarında isə dördü üst-üstə düşüb. Keyançuk pulları götürüb və bəyan edib ki, onu arzularının məzuniyyəti üçün xərcləyəcək. "Mənim kimi adamlar adətən bu cür pullar udmurlar. Bu, fantastikadır".

Avqustun ortasında xəbər yayılmışdı ki, yaşlı amerikalı qadın skanerin səhvi ucbatından az qala şanslı bileti atırdı. Nəticədə lotereya kioskunun satıcısı şəxsən onun biletini yoxlayıb, 50 min dollar qazandığını bildirdi.





## Qadın xəyanətə uğradı, indi də kompensasiya tələb edir

Tula vilayətinin sakini ona xəyanət edən həyat yoldaşından məhkəməyə şikayət edib və ondan vurduğu mənəvi ziyana görə 500 min rubl məbləğində kompensasiya tələb edib. Bu barədə "Legal.Report" xəbər verib. Adi açıqlanmayan qadın Suvorov rayon məhkəməsinə müraciət edərkən bildirib ki, əri ona uzunmüddətli nikahdan kənar münasibəti barədə etiraf edib, üstəlik, bu xəyanətdən uşağı olduğunu da deyib. Bunu deyəndən sonra isə qadından boşanıb.

İddiaçı isə bildirib ki, xəyanət xəbərini öyrənəndən sonra fiziki və mənəvi iztirablar yaşayıb. Bu olaydan sonra onda ürək ağrısı, başgicəllənməsi, yuxusuzluq yaranıb. Eyni zamanda qadın təlaş və qorxu hisslərindən də uzaqlaşa bilmir. Sübut qismində qadın əri atandan sonrakı üç ay müddətində müalicə aldığı xəstəxanalardan əldə etdiyi arayışları göstərib. İşə isə Suvorov rayon Məhkəməsində çalışan yeganə qadın hakim baxacaq.




**QOÇ** - Ayın sonuna qədər nəzərdə tutduğunuz işləri reallaşdırmaq istəyirsinizsə, bu təqvimdən səmərəli şəkildə yararlanın. Gün ərzində mühüm şəxslərlə sövdələşmələr aparın.

**BUĞA** - Səhhətinizdə passivlik hökm sürdüyündən dincəlməyiniz daha məqsədəuyğundur. Ağır fiziki işlərdən, səfərə çıxmaqdan yayının. Axşamsa sevdiyiniz adamlarla təmiz havada gəzinməyə çalışın.

**ƏKİZLƏR** - Şəxsi büdcənizdə artım olacağı gözlənilir. Deməli, ev şəraitində az olmağınız lazım gələcək. Sizə ehtiyac duyanları sevindirməyə çalışın. Texniki avadanlıqlarla ehtiyatlı olun.

**XƏRÇƏNG** - Bürcünüzdəki planetar quruluş maddi dirçəlişdən xəbər verir. Ola bilsin ki, sizə borclu olanlarla rastlaşasınız. Saat 19-21 arası xoş bir təsadüflə rastlaşma ehtimalınız da var.

**ŞİR** - Nəhayət ki, qarşınızda duran bu tarixi ürəyiniz istəyən tərzdə keçirə biləcəksiniz. Ətrafınızda baş verən bütün olaylar ruh yüksəkliyinizə səbəb olacaq. Qazanmaq ehtimalınız da var.

**QIZ** - Müəyyən gərginlik müşahidə olunsa da, özünüzü ələ almaqla gözlənilən neqativliyi dəf edə bilərsiniz. Yaxşı olar ki, bu təqvimdə işlə bağlı heç bir danışıq və sövdələşmədə iştirak etməyəsiniz.

**TƏRƏZİ** - Darıxdırıcı məqamlarınız artıq arxada qalmaqdadır. Ruh düşkünlüyünə son qoyun. Çünki ulduzlar bu gündən başlayaraq taleyinizə müsbət məqamlar paylayacaq. Axşam maraqlı görüşləriniz mümkündür.

**ƏQRƏB** - Hiss olunur ki, qarşıdakı həftə üçün böyük bir sınaq meydanına çəkiləcəksiniz. Elə isə bəri başdan buna hazır olun. Dualar oxuyun, ziyarət edin və Tanrının varlığını başınız üstündə hiss edin.

**OXATAN** - Yaxşı olar ki, saat 16-ya qədər vaxtınızı ev şəraitində keçirəsiniz. Əks təqdirdə əsəbi situasiyalarla üzləşəcəksiniz. Sonrakı müddətdə isə maraqlı adamlarla rastlaşacaqsınız.

**OĞLAQ** - Qarşınızda əlamətdar bir təqvim durur. Vaxtınızın əsas hissəsini əyləncə və qonaqlıqlara həsr etməklə səmərəli anlar yaşaya bilərsiniz. İmkan daxilində səfərə də çıxmaq olar.

**SUTÖKƏN** - İşgüzar sövdələşmələr, pulla bağlı danışıqlar üçün münasib gün olmadığından bu kimi məsələləri təxirə salın. İndi sizə hər şeydən əvvəl orqanizminizi, xüsusən də əsəblərinizi qorumaq lazımdır.

**BALIQLAR** - Ailə-sevgi münasibətlərində uğurlarınız gözlənilir. Bütün umu-küsüləri bir kənara atın. Taleyinizdə dönüş yarandığı indiki məqamda yalnız əzmkarlığınızı artırmalısınız.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# 5 min nəfərə qonaqlıq verdi

Evlilik üzüyünü itirən, sonra isə onu əldə edən çinli sevindiyi üçün 5 min nəfərə qonaqlıq verib. Bu barədə lenta.ru saytı "The South China Morning Post"a istinadən xəbər yayıb. Quançjoudan olan iş adamı Çinin Çunçin şəhərinə gəlib ki, sevdiyi qıza evlənmə təklifi etsin. O, qıza üç karatlıq almaz üzük alıb ki, bunun da qiyməyi 300 min yuan olub. Amma içində hədiyyə olan çantanı mağazalardan birində unudub. Mağazaya gələn müştərilərdən biri isə çantanı taparaq menecerə verib və sonuncu onu sahibinə qaytarıb. Növbəti gün biznesmen elan etdi ki, Çunçin şəhər sakinlərinin xeyirxahlığı ona evlilik təklifini gerçəkləşdirməyə yardım edib. O, üzüyü sevdiyi qıza hədiyyə edib, qız da ona ərə gəlməyə razılaşıb.

Nişanı qutlamaq üçün biznesmen restoranda beş min porsiya lapşa sifariş verib. Bu qonaqlıqda iştirak etmək üçün insanlar uzunluğu 100 metr olan növbə yaradıblar.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN
e-mail adres: yenimusavat@mail.ru
Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)
Redaktor: Nazim SABİROĞLU
"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Lisenziya N: B 114
SAYI: 5.100